Параметры электрохимически активированной воды	Пресная вода	Время, сут		
		1	7	15
pH	7,2	11	9,4	8,7
межфазное натяжение, мН/м	27,6	1,1	5,6	9,5

Эксперименты проводились в следующей последовательности. На первом этапе нефть извлекалась пресной водой (на рисунке область I), на втором – электрохимически активированной водой с различными значениями pH и межфазного натяжения (на рисунке область II), на заключительном этапе извлечение остаточной нефти проводилось 0,025% раствором ПАА в пресной воде с вязкостью 2,15 мПа·с (на рисунке область III).



Зависимость коэффициента извлечения нефти водой (I), электрохимически активированной водой с межфазным натяжением 1,1; 5,6; 9,5 мН/м, полученным за 1, 7, 15 сутки (II) и раствором полимера (III) (соответственно кр.1, кр.2, кр.3) от безразмерного времени

Как видно из рисунка, применение электрохимически активированной воды в качестве рабочего агента после заводнения (КИН – 0,356) практически при всех значениях pH и межфазного натяжения приводит к дополнительному извлечению нефти. Связано это с тем, что электрохимически активированная вода имеет щелочную реакцию и, двигаясь по пласту, взаимодействует с кислотными компонентами нефти, т.е. протекает процесс щелочного воздействия. При этом за счет снижения межфазного натяжения происходит изменение смачиваемости породы, образование эмульсии, что выражается в увеличении фазовой проницаемости для нефти и снижении фазовой проницаемости для воды (Горбунов, Бученков, 1989).

В то же время изменение свойств электрохимически активированной воды во времени существенно влияет на величину КИН из пористой среды. Так, в условиях проведенного эксперимента максимальный КИН (0,464) и дополнительный его прирост после заводнения (0,108) получены при извлечении нефти свежеприготовленной электрохимически активированной водой при времени изменения свойств 1 сут, при извлечении нефти электрохимически активированной водой при времени изменения ее свойств – 7 сут КИН составляет 0,43, а дополнительный прирост – 0,074. Минимальный КИН (0,378) и дополнительный его прирост (0,022) наблюдаются при извлечении нефти электрохимически активированной водой при времени изменения ее свойств 15 сут. Снижение КИН связано с уменьшением межфазного натяжения на границе используемая нефть – электрохимически активированная вода при увеличении времени изменения свойств такой воды и уменьшении эффекта щелочного воздействия (см. таблицу).

Далее была проверена возможность сочетания закачки электрохимически активированной воды при различном изменении ее свойств во времени с последующей закачкой полимерного раствора.

Проведенные исследования показали, что закачка 0,025% раствора ПАА в модель пласта после заводнения и закачка электрохимически активированной воды при различном изменении её свойств во времени приводит к дальнейшему росту КИН. При закачке в модель пласта 0,025% раствора ПАА после применения электрохимически активированной воды с различными физическими параметра-

ми, полученными через 1, 7, 15 суток, КИН достигает соответственно значений 0,58; 0,53; 0,5. Дополнительное извлечение нефти после закачки раствора полимера составляет 0,116; 0,101; 0,122. Связано это с увеличением охвата пласта воздействием. Причем чем раньше (при меньшем времени изменения свойств электрохимически активированной воды во времени) применяется закачка полимерного раствора, тем больше значение КИН.

Заключение

Изменение свойств электрохимически активированной воды во времени существенно влияет на величину коэффициента извлечения нефти из пористой среды. С увеличением времени изменения свойств электрохимически активированной воды с 1 до 15 сут КИН снижается с 0,464 до 0,378, однако он в любом случае выше по сравнению с КИН пресной водой соответственно на 0,108 и 0,022. Такое уменьшение КИН электрохимически активированной водой связано с изменением (увеличением) межфазного натяжения на границе нефть – электрохимически активированная вода во времени. Одной из возможностей уменьшения негативного влияния изменения межфазного натяжения во времени на КИН является применение комбинированного метода извлечения нефти, основанного на сочетании закачек электрохимически активированной воды и полимерного раствора. Причем чем раньше (при меньшем времени изменения свойств электрохимически активированной воды) применяется закачка полимерного раствора, тем больше значение КИН.

ЛИТЕРАТУРА

БАХИР, В.М., АТАДЖАНОВ, А.Р., МАМАДЖАНОВ, У.Д., АЛЕХИН, С.А., МАРИАМПОЛЬСКИЙ, Н.А., НАДЖИМИТДИНОВ, А.Х. 1981, Активированные вещества. Некоторые вопросы теории и практики. *Изв. АН Уз.ССР. Сер. техн. наук.* 5, 68-72.

ГОРБУНОВ, А.Т., БУЧЕНКОВ, Л.Н. 1989. Щелочное заводнение. Недра. Москва. 160с.

САЛАВАТОВ, Т.Ш. 2002. О возможности применения электрообработки в процессах добычи нефти. *Нефтяное хозяйство*, 2, 65-68.

СТРЕКОВ, А.С., МАМАЛОВ, Е.Н., МОВСУМЗАДЕ, А.А., ЯКОВЛЕВА, И.Н. 2013. О возможности повышения нефтеотдачи пластов электрохимически активированной водой. *Азербайджанское нефтяное хозяйство*, 2, 23-26.

СТРЕКОВ, А.С., МАМАЛОВ, Е.Н., ЯКОВЛЕВА, И.Н., АББАСОВ, В.В. 2010. К вопросу использования электрохимически активированных вод для интенсификации процесса добычи нефти. *Научное обозрение*, 4, 8-13.

ТОМИЛОВ, А.П. 2002. Электрохимическая активация – новое направление прикладной электрохимии. *Жизнь и безопасность,* 3, 302-307.

Рецензент: д.т.н. Т.Ш.Салаватов

© V.M.Fətəliyev, 2013

QAZ-KONDENSAT YATAĞININ İŞLƏNİLMƏ PROSESİNDƏ QALIQ SUYUN KONDENSAT İTKİSİNƏ TƏSİRİNİN EKSPERİMENTAL TƏDQİQİ

V.M.Fətəliyev

Azərbaycan MEA Geologiya Institutu
AZ1143, Bakı, H.Cavid prosp., 119

Məqalədə müxtəlif temperatur, məsaməlilik və ilkin stabil kondensatın sıxlığı şəraitində layın qalıq su ilə doyma dərəcəsinin qaz-kondensat yatağının son kondensatvermə əmsalına təsiri eksperimental yolla tədqiq edilmiş və göstərilmişdir ki, qalıq suyun miqdarı artdıqca layın son kondensatvermə əmsalı azalır. Lakin məsaməliliyin artması, ilkin kondensatın sıxlığının azalması və lay temperaturunun artması qalıq suyun təsrini zəiflədir.

Neft yataqlarında olduğu kimi, qaz-kondensat yataqlarında da məsaməli mühitin bir hissəsi, yatağın formalaşması prosesində məsaməli mühitdən lay suyunun karbohidrogen sistemi ilə sıxışdırılması nəticəsində yaranan, əlaqəli və ya qalıq su ilə doymuş olur. Qalıq suyun miqdarı yatağın geoloji strukturundan, litoloji tərkibindən, məsaməli mühiti doyduran qaz və mayelərin xüsusiyyətlərindən və termobarik şəraitdən asılı olaraq, müxtəlif həddə dəyişə bilər. (Гиматудинов, 1971) qeyd etdiyi kimi, təzyiq, temperatur və karbohidrogen sisteminin tərkibindən asılı olaraq, qaz fazasının tərkibində də müəyyən miqdarda su buxarı mövcud olur. Su buxarı laydakı qalıq suyun buxarlanması nəticəsində yaranır ki, bu da laydakı termobarik şəraitə uyğun olaraq lay sisteminin termodinamiki tarazlıq halının saxlanılması və ya bərpa olunması hesabına baş verir. Elə bu səbəbdən də verilmiş təzyiqdə temperaturun artması ilə qaz fazasında su buxarının miqdarı artır və verilmiş temperaturda təzyiqin artması isə onun azalmasına səbəb olur. Ümumi termodinamiki qanunauyğunluqdan əlavə, karbohidrogen və su qarışığı olan sistemlərdə "ikili əks kondensasiya" adlanan hadisə də müşahidə edilmişdir. Bu hadisə, yəni su buxarı tərkibli karbohidrogen sistemin təzyiqin izotermik olaraq azaldılması zamanı karbohidrogen və suyun ayrı-ayrılıqda ayrılması ilk dəfə Vander-Vaals tərəfindən müşahidə edilmişdir. Təcrübələrə əsasən, bu hadisəyə komponentlərindən biri polyar olan sistemlərdə daha çox rast gəlinir.

V.M. Fətəliyev (2005) qalıq suyun diferensial kondensasiya zamanı layın kondensatverminə və yatağın işlənilməsinin son mərhələsində çökmüş kondensatın təbii "quru" qazla buxarlandırılmasına təsirini daha ətraflı tədqiq etmişdir. Tədqiqat zamanı istifadə edilmiş lay modelinin yaradılmasında müxtəlif diametrli dənəciklərdən ibarət olan kvars qumundan istifadə edilmişdir. Experimentlər lay temperaturunun (70-110^{0}C), məsaməliliyin (0,1-0,4), ilkin stabil kondensatın sıxlığının (720-780 kq/m^3) və qalıq suyun (0-40%) qiymətlərinin kifayət qədər böyük intervallarda dəyişməsi şərti ilə kvadratlar kombinasiyası üsulundan istifadə olunmaqla aparılmışdır (Протодьяконов, Тедер, 1970). Beləliklə, müəyyən edilmişdir ki, məsaməli mühitdə qalıq suyun miqdarının 0-dan 40%-ə qədər artması layın kondensatverimini orta hesabla 19-20%, kondensatın "quru" təbii qazla buxarlandırılmasını isə 17-18% azaldir. Eyni zamanda, məlum olmuşdur ki, qalıq suyun təsiri parabolik qanunauyğunluğa tabedir və onun miqdarının 10-15%-dən daha çox artması ilə göstərilən mənfi təsir də intensivləşir. Lakin burada alınan nəticələrin səbəbləri fiziki-termodinamiki baxımdan aydınlaşdırılmamışdır.

V.M.Buleyko (Булейко, 2007) qeyd edir ki, qalıq su yatağın yerləşdiyi məsaməli mühitin ayrılmaz bir hissəsidir və onun nəzərə alınmaması ehtiyatın hesablanmasında böyük xətalara gətirib çıxara bilər. Burada məsaməli mühitin su ilə doymasının heptanın-C_3 adsorbsiyasına təsiri eksperimental yolla tədqiq edilmişdir. Məlum olmuşdur ki, su ilə doyma 1%-ə qədər artdıqda iri kvars dənəciklərindən ibarət olan məsaməli mühitin sorbsiya qabiliyyəti artaraq maksimal həddə çatır, lakin bundan sonra su ilə doymanın artması adsorbsiyanı zəiflədir və onun daha böyük qiymətlərində karbohidrogen komponentlərinin suda həll olması ilə əvəz olunur. Yekun nəticəyə əsasən, mürəkkəb karbohidrogen sistem-

lərinin faza münasibətləri tədqiq edilərkən məsaməli mühitlə yanaşı, su ilə doyma – qalıq suyun nəzərə alınması vacibdir.

Yuxarıda verilmiş qısa icmaldan göründüyü kimi, məsaməli mühitdə yerləşən qalıq su karbohidrogen yataqlarının ayrılmaz hissəsi kimi qəbul edilməli, yataqların ehtiyatının hesablanması da daxil olmaqla istismar və işlənmə sistemlərinin yaradılmasında, layihələndirilməsində, hidrodinamiki və termodinamiki məsələlərin həllində nəzərə alınmalıdır. Lakin qeyd etmək lazımdır ki, qalıq suyun qaz-kondensat sistemlərinin faza münasibətlərinə təsiri tədqiqatçılar tərəfindən birmənalı şəkildə qiymətləndirilməyib (Fətəliyev, 2005). Burada qalıq suyun yatağın kondensatverimino, sistemin kondensasiya təzyiqinə və çökmüş kondensatın buxarlandırılmasına təsiri haqqında məlumatlar bəzən ziddiyyətli və bəzən də müstəsanalıq təşkil etdiyindən elmi-nəzəri əsaslandırma üçün kifayət etmir.

Qaz-kondensat yataqlarının tükənmə prosesində və istismarın son mərhələsində retroqrad çökmüş kondensatın təbii "quru" qazla buxarlandırılmasına termobarik şəraitin, məsaməli mühitin və onun kollektorluq xüsusiyyətlərinin, kondensatın sıxlığının və qalıq suyun təsiri kompleks şəkildə tədqiq edilmişdir (Абасов и др., 2011). Burada eksperiment apararkən qarşıya çıxan əsas çətinliklərdən biri də qalıq suyun və ya əlaqəli suyun modelləşdirilməsi idi. Qeyd olunduğu kimi, karbohidrogen yataqlarındakı qalıq və ya əlaqəli su, mənşəyinə görə yatağın formalaşmağa başladığı dövrlərə aid edildiyindən, uzun illər ərzində müxtəlif dəyişikliyə məruz qalaraq lay şəraitində müəyyən fiziki-kimyəvi əlaqə formaları və geoloji-termodinamiki vəziyyətini formalaşdırır. Digər tərəfdən, qeyd etmək lazımdır ki, əlaqəli su uzun müddət yüksək təzyiq və temperatur altında minerallarla zənginləşmiş və süxur dənəciklərinin səthi ilə sıx əlaqədə olan lay suyu olduğundan onun laboratoriya şəraitində yaradılması çətindir. Əgər süxurların hidrofil və ya hidrofob olmasını da nəzərə alsaq, göstərilən amilin laboratoriya şəraitində birbaşa alınmasının çox çətin olması aydın olur.

M.Masketin (Маскет, 2004) göstərdiyi kimi, laydan götürülmüş süxur nümunələri qazma məhlulu ilə əlaqədə olduğundan onun yer səthinə qaldırılması zamanı təzyiq və temperaturun azalması ilə əlaqədar olaraq termobarik şəraitin dəyişməsi və nəhayət, qalıq suyun təyin edilməsi üsullarından irəli gələn xətalar da eksperimentlərin birbaşa kernlər üzərində aparılmasını çətinləşdirir.

Bunları nəzərə alaraq, apardığımız eksperimentlər rasional planlaşdırma ilə yanaşı, həm də uyğunluq və oxşarlıq amillərindən irəli gələn tələblərin ödənilməsi şərtləri ilə həyata keçirilmişdir. Lakin lay modelində qalıq suyun yaradılması göstərilən metodikaya (Гриценко и др., 1995) uyğun həyata keçirilmişdir. Lay suyu kimi içməli sudan istifadə edilmişdir ki, bunu doğuran səbəblər də aşağıdakılardır: 1) təhlil olunan tədqiqat işlərinə əsasən, suyun minerallaşma və duzluluq dərəcəsisnin artması karbohidrogen sistemlərin termodinamiki proseslərinə onun təsirini zəifladır; 2) suyun tərkibini dəyişməklə karbohidrogen sistemin faza çevrilmələrinə onun təsirini müəyyən etmək üçün aparılacaq eksperimentləri texniki baxımdan çox çətinləşdirər və digər parametrlərin təsirinin öyrənilməsində xətalar yarada bilərdi. Əlbəttə, digər parametrləri sabit saxlamqla tədqiqatı davam etdirmək olardı, lakin bu rasional planlaşdırmaya uyğun olaraq prosesi kompleks şəkildə tədqiq etməyi məhdudlaşdırardı.

Beləliklə, uzunluğu 0,85 m və en kəsik sahəsi $4{,}415X10^{-3}$ m^2 olan kvars qumu ilə doldurulmuş lay modelində, qas-kondensat amili 150q/m^3 olan sistem 30MPa təzyiqdən 6MPa-ya qədər təzyiq pilləsi – 6MPa və götürülmüş temperatur sabit saxlanılmaqla, diferensial kondensasiya edilmişdir. Daha sonra lay modelinin məsaməlilik əmsalından, ilkin kondensatın sıxlığından və lay temperaturundan asılı olaraq, lay modelinin su ilə doyma dərəcəsinin onun son kondensatveriminə təsiri təyin edilmişdir.

Rasional planlaşdirmanın metodikasına uyğun olaraq (Протодьяконов, Тедер, 1970) lay modelinin son kondensatveriminin araşdırılan parametrlərdən aslılığını müəyyən edən riyazi ifadə təklif olunmuşdur (Абасов и др., 2011):

$$Ç = -7{,}9(19{,}124m - 2{,}627)^{-1} - 0{,}28(0{,}1\varphi + 1)^2 - -0{,}181\rho + 0{,}3t + 143{,}84$$

burada $Ç$ – layın son kondensatverimi (%); m – məsaməlilik əmsalı; φ – məsaməli mühitin su ilə doyma əmsalı (%); ρ – ilkin stabil kondensatın sıxlığı (kq/m^3), t – temperaturdur (^{0}C).

Bu asılılıqdan istifadə etməklə layın su ilə doyma həddinin qaz-kondensat sisteminin diferensial kondensasiya prosesinə təsirini araşdıraq. Real yataq şəraitinə müəyyən qədər yaxın olmaq

məqsədi ilə məsaməliliyi – 0,2, lay sistemini rekombinə etmək üçün istifadə edilmiş stabil kondensatın sıxlığı – 750kq/m^3 götürülmüş və temperaturun 70^{0}C-dən 110^{0}C-yə qədər dəyişməsi zamanı son kondensatveriminin məsaməli mühitin su ilə doyma əmsalından asılılığı qurulmuşdur (1-ci şəkil).

Şəkildən göründüyü kimi, su ilə doyma əmsalının 0-dan 40%-ə qədər artması zamanı lay modelinin son kondensatverimi 7% azalır və bu azalma tempi temperaturdan asılı olaraq eyni qanunauyğunluqla baş verir. Buradan göründüyü kimi, məsaməli mühitdə suyun olması onun miqdarından asılı olmayaraq, son kondensatveriminə mənfi təsir edərək onun azalmasına səbəb olur, lakin bu təsirin dərəcəsi su ilə doymanın qiymətindən asılı olaraq müxtəlif səciyyə daşıyır. Məsələn, su ilə doyma 15%-ə qədər artdıqda kondensatverimi cəmi 1,5% azalırsa, 15%-dən 30%-ə qədər artması zamanı 2,7% azalır və bu temp su ilə doymanın artması ilə parabolik xarakter alır.

Digər tərəfdən, qeyd etmək lazımdır ki, temperaturun 70^{0}C-dən 110^{0}C-yə qədər artması ilkin kondensatın sıxlığının – 750 кq/m^3 və məsaməlilik əmsalının verilmiş qiymətində – 0,2 su ilə doymanın (0-dan 40%-ə artması zamanı) prosesə təsirini uyğun olaraq 30,26%-dən 19,65%-ə qədər zəiflədir.

Ümumiyyətlə, məlumdur ki, su karbohidrogen sistemin retroqrad kondensasiya təzyiqinin qiymətini artırır və bu səbəbdən retroqrad kondensasiya daha yuxarı təzyiqlərdə baş verir. Kondensatın erkən çökməsi isə kondensat itkisini artırır. Lakin aparılmış tədqiqat işində (Гриценко и др., 1995) göstərilmişdir ki, məsaməli mühitdə su ilə doymanın 15%-ə qədər artması qaz-kondensat sisteminin faza çevrilmələrinə təsir etmir. Bu, qalıq suyun süxur dənəciklərinin səthini örtərək qaz-kondensat sistemi ilə əlaqəsini kəsməsinə və bununla sorbsiya prosesinin zəifləməsinə və ya nəzərəçarpacaq dərəcədə azalmasına əsaslanır. Bu məsələnin araşdırılması üçün su ilə doymanın son kondensatveriminə təsiri məsaməliliyin müxtəlif qiymətlərində hesablanılmışdır (2-ci şəkil).

Burada stabil kondensatın sıxlığı – 750 кq/m^3, temperatur – 100^{0}C və kondensat amili – 150 q/m^3 olmaqla sabit saxlanılmışdır.

Şəkildən göründüyü kimi, layın məsaməliliyinin azalması (uyğun olaraq xüsusi səthin artması) son kondensatverimini azaldır və bu qalıq suyun miqdarından asılı olaraq, eyni qanunauyğunluqla baş verir. Məsaməlilik əmsalının 0,19-dan 0,39-a qədər artması, ilkin kondensatın sıxlığının – 750 кq/m^3 və temperaturun – 100^{0}C verilmiş qiymətlərində su ilə doymanın (0-dan 40%-ə qədər artması zamanı) prosesə təsirini uyğun olaraq 22,43%-dən 18,58%-ə qədər zəiflədir.

Qaz-kondensat sisteminin kondensasiya təzyiqi kondensatın tərkibindən kəskin şəkildə asılı olub, ağır karbohidrogenlərin miqdarının artması ilə artır və kondensatveriminin azalmasına səbəb olur. Belə komponentlərin qalıq su ilə münasibətini araşdırmaq üçün su ilə doymanın son kondensatveriminə təsiri sistemin rekombinə edilməsi üçün götürülən stabil kondensatın sıxlığının müxtəlif qiymətlərində asılılıqları qurulmuşdur (3-cü şəkil).



1-ci şəkil. Lay modelinin son kondensatveriminə temperaturun müxtəlif qiymətlərində modelin su ilə doymasının təsiri (kondensatın sıxlığı – 750 кq/m^3, məsaməlilik əmsalı – 0,2)



2-ci şəkil. Lay modelinin son kondensatveriminə məsaməliliyin müxtəlif qiymətlərində lay modelinin su ilə doymasının təsiri (kondensatın sıxlığı – 750 кq/m^3, temperatur – 100^{0}C)



3-cü şəkil. Lay modelinin son kondensatveriminə məsaməliliyin müxtəlif qiymətlərində lay modelinin su ilə doymasının təsiri (məsaməlilik – 0,19, temperatur – 100^0C)

Burada məsaməlilik – 0,19, temperatur – 100^0C və kondensat amili 150 q/m^3 olmaqla sabit saxlanılmışdır.

Şəkildən göründüyü kimi, stabil kondensatın sıxlığının artması uyğun olaraq ağır komponentlərin miqdarının artması ilə əlaqədar olduğundan sistemin retroqarad kondensasiya təzyiqinin qiymətini artırır və bu da son kondensatveriminin azalmasına səbəb olur. Lakin asılılıqlardan göründüyü kimi, bu proses qalıq suyun miqdarından asılı olaraq su ilə doymanın müxtəlif qiymətlərində eyni şəkildə təzahür edir. Qeyd etmək lazımdır ki, ilkin kondensatın sıxlığının 800-dən 720 kq/m^3-ə qədər azalması məsaməliliyin 0,19 qiymətində, verilmiş temperaturda – 100^0C su ilə doymanın (0-dan 40%-ə qədər artması zamanı) prosesə təsirini uyğun olaraq 32,14%-dən 19%-ə qədər zəiflədir.

Beləliklə, aparılmış eksperiment tədqiqatların təhlilindən məlum olur ki, məsaməli mühitdə olan qalıq su yatağın son kondensatveriminə mənfi təsir edərək onun azalmasına səbəb olur, lakin:

1) temperaturun 70^0C-dən 110^0C-yə qədər artması, ilkin kondensatın sıxlığının – 750 kq/m^3 və məsaməlilik əmsalının – 0,2 qiymətində su ilə doymanın (0-dan 40%-ə qədər artması zamanı) prosesə təsirini uyğun olaraq 30,26%-dən 19,65%-ə qədər zəiflədir;

2) məsaməlilik əmsalının 0,19-dan 0,39-a qədər artması, ilkin kondensatın sıxlığının – 750 kq/m^3 və temperaturun – 100^0C qiymətlərində su ilə doymanın (0-dan 40%-ə qədər artması zamanı) prosesə təsirini uyğun olaraq 22,43%-dən 18,58%-ə qədər zəiflədir;

3) ilkin kondensatın sıxlığının 800 kq/m^3-dən 720 kq/m^3-ə qədər azalması məsaməliliyin 0,19 qiymətində, verilmiş temperaturda 100^0C su ilə doymanın (0-dan 40%-ə qədər artması zamanı) prosesə təsirini uyğun olaraq 32,14%-dən 19%-ə qədər zəiflədir.

Nəticə

Qalıq suyun qaz-kondensat sistemlərində faza çevrilmələrinə təsir mexanizmi eksperiment yolla öyrənilmiş və ilk dəfə olaraq göstərilmişdir ki, lay modelində suyun hər hansı miqdarı retroqrad prosesləri intensivləşdirərək kondensat itkisini artırır. Lakin məsaməliliyin artması, ilkin kondensatın sıxlığının azalması və lay temperaturunun artması qalıq suyun təsrini zəiflədir.

Məsələnin qoyuluşunda, eksperimentlərin aparılmasında və məqalənin çapa hazırlanmasında köməklərinə görə müəllif AMEA-nın müxbir üzvü Z.Y.Abbasova, t.f.d. N.N.Həmidova və t.f.d. G.H.Məmmədovaya öz təşəkkürünü bildirir.

ƏDƏBİYYAT

FƏTƏLIYEV, V.M. 2005. Qaz-kondensat sistemlərində faza çevrilmələrinin müxtəlif termobarik şəraitlərdə və məsaməli mühitdə tədqiqi. Texnika elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya. Bakı. 142s.

АБАСОВ. М.Т., АББАСОВ, З.Я., ФАТАЛИЕВ, В.М. и др. 2011. Экспериментальное влияние различных факторов на показатели процесса истощения газоконденсатной залежи. *Геология, геофизика и разработка нефтяных и газовых месторождений.* ВНИИОЭНГ, 3, 65-68.

БУЛЕЙКО, В.М. 2007. Закономерности фазовых превращений разрабатываемых месторождений. Автореф. дисс… на соиск. уч. степ. д.т.н. Москва. 48с.

ГИМАТУДИНОВ, Ш.К. 1971. Физика нефтяного и газового пласта. Недра. Москва. 312с.

ГРИЦЕНКО, А.И., НИКОЛАЕВ, В.А. и др. 1995. Компонентотдача пласта при разработке газоконденсатных залежей. Недра. Москва. 264с.

МАСКЕТ, М. 2004. Физические основы технологии добычи нефти. Институт компьютерных исследований. Москва. 606с.

ПРОТОДЬЯКОНОВ, М.М., ТЕДЕР, Р.И. 1970. Методика рационального планирования экспериментов. Недра. Москва. 76с.

Məqaləyə Azərbaycan MEA-nın müxbir üzvü E.M.Ramazanova rəy vermişdir.

ГЕОГРАФИЯ

© N.H.Əyyubov, N.B.Paşayeva, 2013

LƏNKƏRAN-ASTARA İQTİSADİ-COĞRAFİ RAYONUNDA ŞƏHƏR MƏSKUNLAŞMASI VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ

N.H.Əyyubov, N.B.Paşayeva

Azərbaycan MEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu
AZ1143, Bakı, H.Cavid prosp., 115

Məqalədə iqtisadi rayonda şəhər məskunlaşmasının inkişaf xüsusiyyətləri, iqtisadi bazası ilə demoqrafik inkişafı arasında qarşılıqlı əlaqə və asılılıq, əhalinin məskunlaşmasının perspektiv ərazi təşkili baxımından şəhər və qəsəbələrin inkişafının tənzimlənməsi məsələləri araşdırılır.

Tədqiqatın aktuallığı və məqsədi. Sosial-iqtisadi həyatın əsas aparacı mərkəzi rolunu oynayan şəhərlərin öyrənilməsi, onların demoqrafik və iqtisadi bazalarının optimal inkişafının təmin edilməsi ümumi regional inkişafın təkmilləşdirilməsi üçün mühüm amildir. Tədqiqat işində əsas məqsəd iqtisadi rayonun şəhər məskunlaşma sisteminin inkişaf xüsusiyyətlərini, daxili strukturunda baş verən dəyişiklikləri araşdırmaq, hər bir şəhərin regionda yerini, onların perspektiv sosial-iqtisadi inkişafının təkmilləşdirilməsinin iqtisadi-coğrafi istiqamətlərini müəyyən etməkdir (Əyyubov, 2008).

Şəhər əhalisinin və şəhər yaşayış məntəqələrinin sayına görə Lənkəran-Astara iqtisadi-coğrafi rayonu Abşeron, Aran və Gəncə-Qazax iqtisadi rayonlarından sonra respublikada 4-cü yeri tutur. Onun payına Azərbaycan Respublikası şəhər əhalisinin 4,2%-i, şəhər və qəsəbələrinə isə 26%-i düşür. Şəhər yaşayış məntəqələri 8 şəhər və 12 qəsəbə ilə təmsil olunur. Bu yaşayış məntəqələrində 204091 nəfər əhali cəmlənmişdir (2009). Lənkəran-Astara iqtisadi-coğrafi rayonu respublikanın nisbətən zəif urbanizasiyalaşmış regionlarındandır. Ümumi əhalinin tərkibində şəhər əhalisinin payı 24,7% təşkil edir. Bu da orta respublika səviyyəsindən (54%) iki dəfədən də azdır. Orta ölkə səviyyəsi ilə müqayisədə iqtisadi-coğrafi rayonun aşağı urbanizasiya səviyyəsi burada şəhəryaradıcı təsərrüfat sahələrinin zəif inkişaf etməsi ilə əlaqədardır. Şəhəryaradıcı təsərrüfat sahələri olan sənaye, tikinti-quraşdırma, nəqliyyat və rabitə, ticarət, texniki təchizat və s. sosial infrastruktur sahələri orta respublika göstəriciləri ilə müqayisədə çox zəif inkişaf etmişdir.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun orta ölkə səviyyəsi ilə müqayisədə nisbətən zəif urbanizasiyalaşması müəyyən dərəcədə iqtisadi rayonun spesifik demoqrafik inkişafı ilə də bağlı olmuşdur (Əfəndiyev, 2002). Belə ki, iqtisadi rayon respublikada ən yüksək təbii artıma malikdir və bu göstərici həmişə kənd yerlərində daha yüksək olmuşdur. Kənd yerlərindəki yüksək təbii artım isə ümumi əhalinin tərkibində kənd əhalisinin payının çox, şəhər əhalisinin payının isə az olmasına səbəb olur.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonu ərazisində şəhər yaşayış məntəqələrinin yaranması tarixi çox qədim zamanlara getsə də, şəhər məskunlaşma sisteminin sürətli inkişafı, daha geniş miqyasda şəbəkə yaratması Sovet hakimiyyəti illərində mümkün olmuşdur. Azərbaycanda Sovet hakimiyyəti qurulanadək bu iqtisadi-coğrafi rayonun müasir ərazisi çərçivəsində şəhər yaşayış məntəqəsi kimi yalnız Lənkəran şəhəri mövcud olmuşdur. Sovet hakimiyyəti illərində kənd təsərrüfatının intensivləşdirilməsi, xüsusən də əməyin mexanikləşdirilməsi çətin olan əməktutumlu sahələrin (əsasən də çayçılıq), sənayenin, balıqçılığın inkişafı, nəqliyyat və nəqliyyat-iqtisadi əlaqələrin genişlənməsi, su-təsərrüfat obyektlərinin və s. çoxalması şəhər yaşayış məntəqələrinin və onların sistemlərinin formalaşmasına səbəb olmuşdur. Böyük Vətən müharibəsi illərinə (1941-1945) qədər Astara, Port-İliç şəhərləri, Kirov və Nərimanabad qəsəbələri yaranmışdır (Mehrəliyev və b., 1988).

II Dünya müharibəsindən sonra Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda şəhəryardıcı təsərrüfat sahələrinin intensiv inkişafı nəticəsində Cəlilabad və Masallı şəhərləri, Lerik, Yardımlı, Avrora, Haftoni, Boradigah, Kijaba qəsəbələri formalaşdı. Bunun nəticəsində iqtisadi-coğrafi rayonda şəhər əhalisinin sayı 10 dəfədən çox artmış oldu. Şəhər əhalisinin artım tempinə görə Lənkəran-Astara iqtisadi-coğrafi rayonu həmişə orta respublika səviyyəsi ilə müqayisədə daha sürətlə artmışdır. Bu da şəhəryaradıcı təsərrüfat sahələrinin sosial infrastrukturunun sürətli inkişafı ilə əlaqədar olmuşdur. Hazırda iqtisadi rayonun şəhər yaşayış məntəqələrində olan sənaye müəsisələri əsasən yerli xammalla işləyərək müəyyən təsərrüfat funksiyası həyata keçirirlər. Şəhər və qəsəbələrin sənaye strukturunda aparıcı yeri yeyinti sənayesi tutur. Şəhər yaşayış məntəqələrində çay fabrikləri, meyvə-tərəvəz konserv zavodları, balıq emalı müəssisələri, süd emlı zavodları və s. sosial təyinatlı müəssisələr işləyir.

Əksər şəhər və qəsəbələr iqtisadi-coğrafi rayonun düzən-ovalıq, dəniz sahili ərazisində, beynəlxalq əhəmiyyətli Bakı-Astara-Tehran avtomobil yolunun və həmçinin Bakı-Astara dəmir yolunın keçdiyi əlverişli iqtisadi-coğrafi mövqedə cəmlənmişdir. Ərazidə Lənkəran, Astara, Cəlilabad, Masallı, Liman, Göytəpə və Nərimanabad şəhər və qəsəbələri cəmlənmişdir. Bu ərazidə iqtisadi-coğrafi rayonun şəhər əhalisinin 80%-ə qədəri məskunlaşmışdır. İqtisadi rayonun dağlıq hissəsində Yardımlı (6603 nəfər) və Lerik (7301 nəfər) şəhərləri yerləşir. Onlar əhalisinin sayına görə o qədər də böyük deyillər. Bu iki şəhərdə ümumi iqtisadi rayonun şəhər əhalisinin 6,8%-i yaşayır.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun şəhər məskunlaşma sisteminin inkişaf dinamikasını və strukturunda baş verən dəyişiklikləri əhalinin siyahıyaalınma materialları əsasında tərtib olunmuş aşağıdakı cədvəl üzrə izləmək olar (Azərbaycan əhalisi, 2012; Azərbaycan Respublikası...., 2011) (cədvəl).

Cədvəldən aydın olur ki, iqtisadi-coğrafi rayonun şəhər məskunlaşma sistemində əhalisinin sayı 10 min nəfərə qədər olan kiçik və orta şəhərlər üstünlük təşkil edir. Onların sayı, əhalinin son siyahıyaalma məlumatlarına görə (2009-cu il), 14-dür. Bu da iqtisadi-coğrafi rayonun bütün şəhər yaşayış məntəqələrinin 70%-i deməkdir. Bu kateqoriyadan olan şəhər yaşayış məntəqələrinin sayının və payının çox olmasına baxmayaraq, onlarda bütün Lənkəran-Astara iqtisadi-coğrafi rayonu şəhər əhalisinin ancaq 27,5%-i yaşayır.

Hazırda əhalisinin sayı 10-15 və 15-20 min nəfər olan şəhərlərin sayı 4-dür. Onlar da ümumi şəhər yaşayış məntəqələrinin 20%-ni təşkil edir. Bu şəhər yaşayış məntəqələrində isə ümumilikdə iqtisadi-coğrafi rayonun şəhər əhalisinin 27,1%-i cəmlənmişdir.

Əhalinin son siyahıyaalma məlumatlarına görə, Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda əhalisinin sayı 40 mindən çox olan iki şəhər mövcuddur. Bu iki şəhər iqtisadi-coğrafi rayonun bütün şəhər yaşayış məntəqələrinin 10%-ni təşkil etsə də, onlarda iqtisadi rayonun şəhər əhalisinin əhəmiyyətli hissəsi – 45,4%-i yaşayır.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun şəhər məskunlaşma sisteminin əhalinin siyahıyaalma məlumatlarına görə struktur dəyişmələri

Əhalisinin sayı	Şəhər yaşayış məntəqələri								Onlarda yaşayan əhalinin sayı							
	1959		1979		1999		2009		1959		1979		1999		2009	
	sayı	%	sayı	%	sayı	%	sayı	%	sayı	%	sayı	%	sayı	%	sayı	%
3 min nəfərə qəd.	1	12,5	3	20,0	2	12,5	6	30,0	3000	4,9	6100	4,8	4408	2,5	10192	5,0
3-5 min	1	12,5	7	46,7	5	31,3	3	15,0	3200	5,3	28300	22,4	19995	11,2	11974	5,9
5-10 min	5	62,5	1	6,7	4	25,0	5	25,0	29300	48,2	9300	7,4	30523	17,1	33749	16,6
10-15 min	-	-	2	13,3	3	18,8	2	10,0	-	-	22600	17,9	40639	22,8	24261	11,9
15-20 min	-	-	1	6,7	-	-	2	10,0	-	-	-	-	-	-	30958	15,2
20-30 min	1	12,5	-	-	-	-	-	-	25200	41,5	19900	15,8	-	-	-	-
30-40 min	-	-	1	6,7	1	6,2	-	-	-	-	40000	31,7	34601	19,4	-	-
40 mindən çox	-	-	-	-	1	6,2	2	10,0	-	-	-	-	48111	26,9	92290	45,4
Cəmi	8	100	15	100	16	100	20	100	60700	100	126200	100	178277	100	203424	100

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun əhalisinin sayına, sosial-iqtisadi potensialına görə ən böyük şəhəri Lənkəran şəhəridir. Şəhər Lənkərançayın solunda, Xəzər dənizinin sahilndə yerləşir. Əhalinin 2009-cu il siyahıyaalma məlumatlarına görə, Lənkəran şəhərində 49970 nəfər əhali yaşayır. İqtisadi-coğrafi rayonun digər şəhər və qəsəbələrinin intensiv sosial-iqtisadi inkişafı fonunda Lənkəran əhalisinin iqtisadi rayonun ümumi şəhər əhalisi içərisindəki payı getdikcə azalır. Əgər 1939-cu ildə Lənkəran şəhərində ümumi iqtisadi-coğrafi rayonun şəhər əhalisinin 84%-i yaşayırdısa, 1959-cu ildə bu rəqəm 40,8%, 1979-cu ildə 32,6%, 1999-cu ildə 30,0%, 2009-cu ildə isə 24,5% təşkil etmişdir. Bu prosesə paralel olaraq Lənkəranın demoqrafik inkişafı iqtisadi-coğrafi rayonun şəhər əhalisinin demoqrafik inkişafından da geri qalır. Əhalinin demoqrafik inkişaf tempində baş verən bu meyillər Lənkəranın respublika tabeli şəhər və eyniadlı inzibari rayonun idarəetmə və sosial-iqtisadi mərkəzi olmasına baxmayaraq, onun regionun həyatındakı rolunun azalmasını göstərir. Bununla bərabər, Lənkəran şəhəri regionun sosial-iqtisadi, demoqrafik potensialında hələlik aparıcı rol oynamaqdadır (1-ci və 2-ci şəkillər).

Lənkəranın bir şəhər kimi formalaşmasında, inkişafında, əhalisinin sayının çoxalmasında onun yerinə yetirdiyi sosial-iqtisadi funksiya ilə yanaşı, həm də ətraf ərazilərin, kənd və qəsəbələrin mühüm təsərrüfat-təşkilat, sosial-mədəni mərkəz funksiyasını yerinə yetirməsi mühüm rol oynamışdır. Hazırda da bu funksiya şəhəryaradıcı amil kimi əhəmiyyətli rol oynayır. Lənkəran şəhəri hal-hazırda (2009-cu il) 8 qəsəbənin, 83 kəndin inzibati idarəetmə mərkəzidir.

Lənkəran şəhərinin iqtisadi bazasında sənaye infrastrukturu 40 müəssisə ilə təmsil olunur (2010-cu il). Bu müəssisələrdə çalışan sənaye-istehsal heyətinin sayı 1512 nəfər təşkil edir. Göründüyü kimi, sənaye müəssisələri çox kiçik həcmlidir, onların sənaye-istehsal heyətinin orta sayı 37,8 nəfər təşkil edir. Bu müəssisələr əməktutumlu olmayıb, əsasən yerli kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olurlar. Şəhərin sənaye strukturunda yeyinti və tikinti sahələrinin müəssisələri üstünlük təşkil edir. Şəhərdə çay fabrikləri, ət və süd kombinatı, meyvə-tərəvəz konserv zavodu, müxtəlif tikinti məhsulları buraxan müəssisələr fəaliyyət göstərir.



1-ci şəkil. Lənkəran şəhərində əhalinin sayının dinamikası



2-ci şəkil. Lənkəran şəhəri əhalisinin ümumi şəhər əhalisinin tərkibindəki payının dinamikası

Şəhərin yüngül sənaye müəssisələri bir çox kiçik xidmət obyektləri ilə təmsil olunur. Lənkəran şəhərində Azərbaycan Elmi-Tədqiqat Bağçılıq və Subtropik Bitkilər İnstitutunun filialı, universitet, texnikum, musiqi məktəbi və s. yerləşir.

Lənkəran respublika tabeli şəhər, həm də əsas regional mərkəz olmasına baxmayaraq, burada artan demoqrafik potensiala uyğun mövcud və yeni yaranan iş yerlərinin olmaması-çatışmaması problemi mövcuddur. Ona görə də Lənkəran şəhəri ətraf regionların nisbətən inkişaf etmiş yaşayış məntəqələri ilə, xüsusən də Bakı ilə əhali mübadiləsində mənfi balansa malikdir. Yəni Lənkəran şəhərinə gələnlərin sayı bu şəhərdən gedənlərin sayından əhəmiyyətli dərəcədə azdır.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun demoqrafik, sosial-iqtisadi potensialına görə ikinci böyük şəhəri Cəlilabaddır. Bu şəhərdə, əhalinin 2009-cu il siyahıyaalma məlumatlarına görə, 42320 nəfər yaşayır. Cəlilabad şəhərinin əhalisi son on ildə (1999-2009) 22,3% artmışdır və ya iqtisadi-coğrafi rayonun şəhər əhalisinin 20,7%-ni təşkil edir. Bu da orta iqtisadi rayon göstəricisindən (14,5%) 6% bənd çoxdur. Cəlilabad şəhərinin inzibati idarəsində 1 qəsəbə, 117 kənd yaşayış məntəqəsi vardır. Məhz bu

amil Cəlilabad şəhərinin formalaşmasında, inkişafında şəhəryaradıcı amil kimi mühüm rol oynamış və oynamaqdadır. Artan demoqrafik potensiala uyğun iş yerlərinin olmaması-çatışmaması Cəlilabad şəhərinin digər böyük şəhərlərlə əhali mübadiləsində mənfi miqrasiya balansına səbəb olur. Buna baxmayaraq, Cəlilabad əhalinin artım tempinə görə regionda Lənkərandan daha surətlə inkişaf edir və yaxın gələcəkdə, belə davam etsə, iqtisadi rayonun əsas regional mərkəzi funksiyasını öz üzərinə götürəcəkdir (3-cü və 4-cü şəkillər).

Əhalisinin sayına görə Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun üçüncü şəhəri Azərbaycan və İran sərhədində yerləşən Astara şəhəridir. Şəhərdə, 2009-cu il əhalinin siyahıyaalma məlumatlarına görə, 15304 nəfər, 2011-ci ilin əvvəlinə olan statistikaya görə, 16,7 min nəfər əhali yaşayır. Astara şəhərinin bir şəhər yaşayış məntəqəsi kimi formalaşmasında və inkişafında onun əlverişli sərhəd iqtisadi-coğrafi mövqeyi ilə yanaşı, eyniadlı inzibati rayonun təsərrüfat-təşkilat mərkəzi olması funksiyası da mühüm rol oynamışdır. Təsadüfi deyildir ki, hazırda Astara şəhərinin inzibati idarəçiliyində 1 şəhər, 1 qəsəbə, 13 kənd ərazi vahidi və 90 kənd yaşayış məntəqəsi vardır.

Astara şəhərinin təsərrüfat strukturunda əsasən yerli kənd təsərrüfatı xammalının emalına əsaslanan yeyinti sənayesi müəssisələri fəaliyyət göstərir. Onlardan da ən əsası çay fabriki, ət-süd emalı müəssisələridir. Xəzər sahilindəki liman mövqeyi, İran ilə mövcud olan sərhəd-keçid məntəqəsinin burada yerləşməsi, yuxarıda qeyd edilən amillərlə yanaşı, şəhərin sosial-iqtisadi və demoqrafik inkişafında müəyyən rol oynayır. Lakin Astara şəhərində iş yerlərinin məhdudluğu, nisbətən yüksək demoqrafik inkişafın mövcudluğu şəhərin iqtisadi bazası ilə demoqrafik potensialı arasında disproporsiyanın olmasına səbəb olmuşdur. Ona görə də Astara şəhəri mənfi miqrasiya balansına malikdir. Bu da şəhərin təsərrüfat strukturunu əməktutumlu, emaledici maddi infrastruktur sahələr hesabına yaxşılaşdırmağı – təkmilləşdirməyi tələb edir.

Əhalisinin sayına görə Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun dördüncü şəhəri rayon tabeli Göytəpə (keçmiş Prişib) şəhəridir. Cəlilabad inzibati ərazi bölgüsünə aid olan bu şəhərdə, 2009-cu ilin siyahıyaalma materiallarına görə, 13590 nəfər, 2011-ci ilin əvvəlinə olan cari statistikaya görə isə, 13900 nəfər əhali yaşayır. Yuxarıda iqtisadi-coğrafi təhlilə məruz qalan şəhərlərə xas olan xüsusiyyətlər Göytəpə şəhəri üçün də səciyyəvidir. Fərqli cəhəti odur ki, bu şəhərin təsərrüfat-təşkilat funksiyası yalnız özünü əhatə edir.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun Liman şəhəri (keçmiş Port-İliç) 1921-ci ildə dəniz limanı kimi Qızılağac körfəzinin sahilində yaranmışdır. Uzun müddət (1940-cı ilə kimi) Xəzərlə daşınan tranzit yüklərin əsas ötürmə məntəqələrindən biri olmuşdur. Əlverişli təbii-coğrafi şəraiti bu limanı bütün Xəzər sahilində dalğa və qasırğalardan qoruyan əhəmiyyətli bir məntəqə etmişdir. Bu limanda, hava şəraitindən asılı olmayaraq, uzun müddət İranla SSRİ arasında olan nəqliyyat əlaqəsində yükvurma və yükboşaltma əməliyyatları aparılmış, tufanlı hava şəraitində gəmilər dalğadan qorunmuşlar. Sonralar dənizin geri çəkilməsi nəticəsində dayazlaşma ilə əlaqədar bu funksiya əhəmiyyətini azaltmışdır. Hazırda balıqçı gəmilərinin sahilə yan alması üçün dəniz kanalı fəaliyyət göstərir. Şəhərdə bir neçə kiçik yeyinti sənayesi müəssisəsi vardır. Onların içərisində balıq emalı zavodu istehsal heyətinin çoxluğu, iqtisadi cəhətdən rentabelliyi ilə fərqlənir.



3-cü şəkil. Cəlilabad şəhərində əhalinin sayının dinamikası



4-cü şəkil. Cəlilabad şəhəri əhalisinin ümumi şəhər əhalisinin tərkibindəki payının dinamikası

Liman şəhərində, əhalinin 2009-cu il siyahıyaalma materiallarına görə, 10671 nəfər, 2011-ci ilin əvvəlinə olan cari statistikaya görə isə, 10800 nəfər yaşayır. Şəhərin iqtisadi bazasını ətraf ərazilərin kənd təsərrüfatı məhsullarının emalına əsaslanan yeyinti sənayesi müəssisələri təşkil edir. Bu müəssisələr əsasən kiçikhəcmli olub az əməktutumludurlar. Artan demoqrafik potensiala uyğun iş yerlərinin olmaması nəticəsində şəhər mənfi miqrasiya balansına malikdir.

Əhalisinin sayına görə Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun şəhər məskunlaşma sistemində 6-cı yeri Masallı şəhəri tutur. Bu şəhərdə, əhalinin 2009-cu il siyahıyaalma materiallarına görə, 8367 nəfər, 2011-ci ilin əvvəlinə olan məlumata görə isə, 9200 nəfər əhali yaşayır. Masallının bir şəhər kimi formalaşmasında, inkişafında onun yerinə yetirdiyi iqtisadi funksiya ilə yanaşı, ətraf ərazilərin təsərrüfat-təşkilat funksiyasını yerinə yetirməsi fəaliyyəti də mühüm rol oynamış və oynamaqdadır. Doğrudur, kollektiv sosialist təsərrüfat sisteminin ləğv edilməsi, özəl təsərrüfatçılıq sisteminin yaranması Masallının təsərrüfat-təşkilat funksiyasının zəifləməsinə və bir şəhəryaradıcı faktor kimi bu amilin rolunun azalmasına səbəb olmuşdur. Hazırda (2011-ci il) Masallı şəhərinin inzibati-idarəçiliyində 1 şəhər, 3 qəsəbə, 33 kənd ərazi vahidində birləşən 105 kənd yaşayış məntəqəsi yerləşir. Şəhər dağətəyi və düzən ərazinin kənd təsərrüfatının intensiv inkişaf etdiyi sıx məskunlaşma arealında yerləşir.

Masallı şəhərinin təsərrüfat strukturunda əsas yeri kiçikhəcmli yeyinti və yüngül sənaye müəssisələri və tikinti sahəsi tutur. Əsas yeyinti sənayesi müəssisələri ətraf kənd yaşayış məntəqələrinin istehsal etdiyi yerli xammalın emalı ilə işləyən meyvə-tərəvəz konserv, ət-süd zavodlarıdır.

Bu şəhərdə də demoqrafik inkişaf sosial-iqtisadi inkişafı qabaqlayır. Bu da artan demoqrafik potensialın iş yerlərinin çatışmaması-olması ilə əlaqədar başqa yerlərə miqrasiyasına səbəb olur. Ona görə də Masallı şəhərinin əhalisi yalnız yerli təbii artım hesabına çoxalır. Hətta artan yerli təbii artımın müəyyən hissəsi bu yaşayış məntəqəsindən kənara çıxır.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun şəhər məskunlaşma sistemində əsas regional mərkəzlərdən biri kimi Lerik şəhəri seçilir. Lerik şəhərinin şəhəryaradıcı amil kimi iqtisadi bazasını kiçik yeyinti sənayesi müəssisələri, ən əsası isə ətraf yaşayış məntəqələrinin, iqtisadi həyatın təsərrüfat-təşkilat, sosial-mədəni mərkəzi olması funksiyası təşkil edir. Cəlilabad inzibati-ərazi bölgüsündən sonra Lerik rayonu ərazisinə görə iqtisadi-coğrafi rayonun ikinci rayonudur. Ona görə də təsərrüfat-təşkilat funksiyasının miqyasına görə Lerik şəhəri iqtisadi-coğrafi rayonda fərqlənir. Lerik şəhəri dağ vadisində dəniz səviyyəsindən 1500-2500 m mütləq hündürlüklər arasında yerləşir. Lənkəran-Astara iqtisadi-coğrafi rayonuna daxil olan bütün inzibati rayon mərkəzlərindən ən çox yaşayış məntəqəsi Lerik şəhərinin inzibati idarəçiliyindədir. Ümumiyyətlə, Lerik şəhərinin inzibati idarəçiliyində 1 şəhər, 28 kənd ərazi dairəsinə daxil olan 160 kənd yaşayış məntəqəsi yerləşir. Son statistik məlumata görə (2011), bu şəhərdə 7500 nəfər əhali yaşayır.

İqtisadi-coğrafi rayonun dağlıq hissəsində yerləşən şəhər məskunlaşma sisteminin mühüm istinad-dayaq karkaslarından biri Yardımlı şəhəridir. Yardımlı şəhəri Viləşçayın sol sahilində, dağ yamacında yerləşir. Şəhərin əsas şəhəryaradıcı bazası onun ətraf ərazilər üçün təsərrüfat-təşkilat, sosial-mədəni mərkəz funksiyası daşımasıdır. Son statistik məlumata görə, bu şəhərin inzibati idarəçiliyində 1 şəhər, 29 kənd ərazi dairəsinə daxil olan 87 kənd yaşayış məntəqəsi vardır. 2011-ci ilin əvvəlinə olan məlumata görə, Yardımlı şəhərində 6,7 min nəfər əhali cəmlənmişdir. Şəhərin ətraf ərazilərində – kəndlərdə becərilən kənd təsərrüfatı xammalının, xüsusən də heyvandarlıq məhsullarının emalına əsaslanan, o qədər də böyük olmayan yeyinti sənayesi müəssisələri fəaliyyət göstərir.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun şəhər məskunlaşma sistemində qəsəbələr əhəmiyyətli rol oynayır. Rayon şəhər məskunlaşma sistemində 12 qəsəbə ilə təmsil olunur. Bu yaşayış məntəqələrində 2009-cu ilin əhalinin siyahıyaalma materiallarına görə, 49465 nəfər əhali yaşayır. Bu da iqtisadi-coğrafi rayonun bütün şəhər əhalisinin 24,5%-i deməkdir. Əhalisinin sayına görə ən böyük qəsəbə Ərkivandır (15654 nəfər). Əhalisinin nisbətən böyük demoqrafik potensialı ilə Boradigah (5781 nəfər), Nərimanabad (4613 nəfər), Gərmətük (4140 nəfər) və İstisu (3221 nəfər) qəsəbələri seçilir. Azərbaycan qanunvericiliyinə görə, yaşayış məntəqəsinə şəhər statusu əhalisinin sayı 15 min nəfərdən çox olan qəsəbə və ya kəndə verilir. Göründüyü kimi, Ərkivan demoqrafik potensialına görə

bu statusa layiqdir. Lakin iqtisadi cəhətdən fəal əhalinin tərkibində sənaye və sosial infrastrukturlarında çalışanların payı azdır. Əhalinin əhəmiyyətli hissəsi kənd təsərrüfatının müxtəlif sahələrində çalışır.

Beləliklə, Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun şəhər məskunlaşma sisteminin inkişaf xüsusiyyətlərinin iqtisadi-coğrafi tədqiqi aşağıdakı nəticələrə gəlməyə əsas verir:

1. Əlverişli təbii-coğrafi şərait, iqtisadi-coğrafi mövqe, əməktutumlu kənd təsərrüfatı sahələrinin inkişafı və onun məhsullarının emalı, təsərrüfat-təşkilat, sosial-mədəni mərkəz funksiyası şəhərlərin və qəsəbələrin inkişafında mühüm rol oynamışdır.

2. Şəhər məskunlaşma sisteminin strukturunda region üçün səciyyəvi olan kiçik şəhər və qəsəbələrin demoqrafik payı azalmaqda, orta və böyük şəhərlərin payı artmaqdadır.

3. Şəhərlərin demoqrafik inkişafında baş verən meyillər Lənkəran şəhərinin regional mərkəz kimi rolunun zəifləməsini göstərir. Təkcə son 10 ildə (1999-2009) Lənkəran şəhərinin ümumi şəhər əhalisindəki payı 8,1% azalmışdır. Yaxın gələcəkdə regional mərkəz funksiyası Lənkəran şəhərindən Cəlilabad şəhərinə keçə bilər.

4. Şəhər yaşayış məntəqələrinin demoqrafik potensialı ilə, xüsusən də onların əmək ehtiyatları ilə iqtisadi bazası arasında disproporsiya mövcuddur və o dərinləşməkdə davam edir. Ona görə də şəhərlərin hamısı mənfi miqrasiya balansına malikdir.

5. Şəhər məskunlaşma sisteminin inkişafının təkmilləşdirilməsində şaquli urbanizasiyalaşmağa üstünlük verilməlidir. Xüsusən də relyef şəraitinin imkan verdiyi yerlərdə yeraltı tikililər (anbarlar, soyuducular, qarajlar və s.), əsasən də insanların uzun müddət qalmayacağı obyektlərin yerləşdirilməsinə üstünlük verilməsi məqsədəuyğundur.

6. Lerik və Yardımlı şəhərləri daha surətli inkişaf etdirilməli, daglıq ərazinin demoqrafik potensialını yerlərdə saxlamaqla bərabər, əsas sərhəd yaşayış məntəqəsi kimi onların mühüm istinad–dayaq karkası funksiyası gücləndirilməlidir.

ƏDƏBİYYAT

AZƏRBAYCANIN ƏHALİSİ. 2012. Dövlət Statistika Komitəsi. Bakı. 124s.

AZƏRBAYCAN RESPUBLİKASI ƏHALİSİNİN SİYAHIYAALINMASI – 2009. Cild 1. 2011. Bakı.

ƏYYUBOV, N.H. 2008. Azərbaycanda əhali məskunlaşmasının təkmilləşdirilməsinin iqtisadi-coğrafi problemləri. *AMEA-nın Xəbərləri. Yer elmləri*, 1, 144-150.

MEHRƏLİYEV, E.Q., ƏYYUBOV, N.H., SADIQOV, M.O. 1988. Azərbaycan SSR-də əhalinin məskunlaşması məsələləri. Bakı. 192s.

PAŞAYEV, N.Ə., ƏYYUBOV, N.H., EMİNOV, Z.N. 2010. Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası. Bakı. 416s.

Məqaləyə c.e.d. V.Ə.Əfəndiyev rəy vermişdir.

© V.Z.Abbasova, 2013

NAXÇIVAN MR-DƏ YAŞAYIŞ MƏNTƏQƏLƏRİNİN TƏSNİFATI VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

V.Z.Abbasova

Azərbaycan MEA H.Ə.Əliyev adına Coğrafiya İnstitutu
AZ1143, Bakı, H. Cavid prosp., 115

Məskunlaşmanın mühüm elementləri olan şəhər və kəndlərin iqtisadi, sosial və demoqrafik inkişaf perspektivlərinin müəyyən edilməsi vacib vəzifələrdən biridir. Möhkəm iqtisadi və sosial bazaya malik olan yaşayış məntəqələri demoqrafik cəhətdən davamlı olaraq inkişaf edir. Ona görə də məntəqələrin təsnifat qruplarında dəyişikliklər gedir. Əlverişsiz təbii-coğrafi şəraitdə, dağlıq ərazilərdə yerləşən yaşayış məntəqələrində kənd təsərrüfatında və əhaliyə xidmət göstərilməsində problemlər yaranır.

Naxçıvan MR-də zəif iqtisadi baza şəhər və kəndlərin inkişafına imkan vermir. İş yerləri ilə təminatda mövcud olan problemlər miqrasiyanın intensiv getməsinə səbəb olur. Ona görə də yaşayış məntəqələrinin təsərrüfat strukturunun yenidən qurulması, əməktutumlu kənd təsərrüfatı məhsullarını emal edən sahələrin yaradılması, xidmət səviyyəsinin yüksəldilməsi istiqamətində tədbirlər görmək lazımdır.

Mövzunun aktuallığı. Əhali məskunlaşmasının inkişafında şəhər və kənd yaşayış məntəqələrinin sayı, onlarda əhalinin sayının dinamikası mühüm əhəmiyyət kəsb edir. Əlverişli iqtisadi-coğrafi mövqədə (İCM) yerləşən, dinamik inkişaf edən, davamlı iqtisadi və sosial bazaya malik olan şəhərlər və kəndlər demoqrafik cəhətdən də inkişaf edir. Bu halda miqrasiyanın nizamlanması, əhalinin iş yerləri ilə təmin edilməsi, onlara göstərilən sosial xidmətlərin səviyyəsinin yüksəldilməsi imkanları genişlənir. Davamlı olaraq inkişaf edən yaşayış məntəqələri özünün inkişafı prosesində bir təsnifat qrupundan digərinə keçir. Belə iqtisadi-sosial və demoqrafik vəziyyət məskunlaşma sisteminin formalaşması və inkişafında əsas amil kimi çıxış edir.

Tədqiqat obyekti. Azərbaycanın tərkib hissəsi olan Naxçıvan MR-də yaşayış məntəqələrinin inkişafının öyrənilməsində onların təsnifatının aparılması mühüm əhəmiyyət kəsb edir. Yaşayış məntəqələrinin təsnifatının öyrənilməsi ilə mövcud problemlər, onların həlli yolları müəyyən edilir, məntəqələrin inkişafına təsir göstərən təbii-coğrafi və sosial-iqtisadi amillərin rolunun aşkar edilməsi mümkün olur. 2012-ci ildə, işğal edilmiş ərazilər də nəzərə alınmaqla, Azərbaycanda 334 şəhər yaşayış məntəqəsi, o cümlədən 77 şəhər, 4260 kənd məntəqəsi mövcud olmuşdur (Azərbaycanın demoqrafik..., 2012). Bu dövrdə Naxçıvan MR-də 13 şəhər yaşayış məntəqəsi, o cümlədən 5 şəhər, 207 kənd yaşayış məntəqəsi qeydə alınmışdır (Azərbaycanın əhalisi ..., 2012). Respublikanın şəhər yaşayış məntəqələrinin 3,89%-i, şəhərlərin 6,49%-i, kəndlərin 4,86%-i MR-də yerləşir.

Mövzunun izahı. Şəhər məntəqələrinin təsnifatı. Yaşayış məntəqələrində əhalinin sayı davamlı olaraq artdığından onların təsnifat qruplarında mövqeyi də daim dəyişir. Lakin MR-də yerləşən şəhərlərdə əhalinin sayı azdır və bu səbəbdən də şəhərlər zəif templə böyüyür. Şəhərlərin iqtisadi bazasının zəifliyi, sosial xidmətlərin aşağı səviyyəsi, iş yerləri ilə təminatda özünü göstərən problemlər miqrasiya intensivliyinin yüksəlməsinə səbəb olur. Nəticədə yaranmış demoqrafik vəziyyət əhalinin sayının davamlı artımına imkan vermir.

2009-cu ildə Naxçıvan MR-də 5 şəhər, 8 qəsəbə mövcud olmuşdur (Azərbaycan Respublikası..., 2000). MR-də əhalisinin sayı 5 min nəfərdən çox olan 5 şəhər vardır, o cümlədən Naxçıvan, Culfa və Ordubad şəhərlərində 10 min nəfərdən çox əhali yaşayır. Əhalisinin sayı 5 min nəfərdən çox olan şəhərlərdə MR-in ümumi əhalisinin 26,36%-i, şəhər əhalisinin 90,9%-i toplanır (105 min nəfər). Əhalisinin sayı 10 min nəfərdən çox olan 3 şəhərdə 93302 nəfər yaşayır. Ümumi əhali arasında onların payı 32,4%, şəhər əhalisi arasında xüsusi çəkisi 80,8%-dir.

MR-in inzibati mərkəzi olan Naxçıvan şəhəri əhalisinin sayına görə irəlidədir. 2012-ci ilin əvvəlində şəhərdə 74,1 min nəfər əhali yaşamışdır (1-ci və 3-cü şəkillər). Bu da MR-in ümumi əhalisinin 17,7%-ni, şəhər əhalisinin 60,89%-ni təşkil edir. Naxçıvan şəhəri ölkənin tarixində mühüm rol oynayır. Tarixi inkişafı döv-

ründə şəhər bir neçə dövlətin paytaxtı olmuş, əlverişli İCM-də yerləşdiyinə görə son 200 ildə MR-in əsas sənaye, sosial-mədəni və demoqrafik potensialının cəmləndiyi mərkəzə çevrilmişdir (Nadirov və b., 2000). Lakin şəhərdə əhalinin sayının artımı zəif templə gedir. Bununla yanaşı, 1970-1990-cı illərdə əhalinin sayı sürətlə artmışdır. 1970-1979-cu illərdə əhalinin sayı 7,1 min nəfər və ya 21,4%, 1979-1989-cu illərdə 18,4 min nəfər və ya 45,6% çoxalmışdır (Eminov, 2005).

Müstəqilliyin ilk illərində yaranan ictimai-siyasi gərginlik miqrasiyanın yüksəlməsi ilə yanaşı, təbii artımın aşağı düşməsinə, şəhərə olan miqrasiyanın azalmasına səbəb olmuşdur. Ona görə şəhərdə əhalinin sayı 1989-1999-cu illərdə 4,4 min nəfər və ya 7,5% çoxalmışdır.

1999-cu ildən sonra yeni təsərrüfat obyektlərinin yaradılması, iş yerləri ilə təminatın yaxşılaşdırılması əhali artımının yüksəlməsinə imkan vermişdir. Lakin son iki siyahıyaalma arasındakı dövrdə olan əhali artımı (8,1 min nəfər və ya 12,8%) əvvəlki dövrlərə nisbətən az olmuşdur.

Şəhərin sosial-demoqrafik inkişafının təmin edilməsi üçün, ilk növbədə, əhalinin mənzillə təmin edilməsi, sosial xidmətlərin səviyyəsinin yüksəldilməsi, iş yerləri ilə təminat üçün əməktutumlu istehsal sahələrinin yaradılması lazımdır. Naxçıvan şəhərinin inkişafı MR-də olan digər şəhərlərin inkişafına da şərait yaradar.

Əhalisinin sayı 10 min nəfərdən çox olan Ordubad və Culfa şəhərlərində 1990-cı ilə qədər davamlı demoqrafik inkişaf getmişdir. Bu dövrdə şəhərlərdə istehsal obyektləri fəaliyyət göstərmiş, əhalinin iş yerləri ilə təminatı həll edilmiş, mənzil, sosial xidmətlərlə təminat müasir tələblər səviyyəsində qurulmuşdur.



1-ci şəkil. Naxçıvan MR-in şəhərlərində əhalinin sayının dəyişməsi (Əhalinin sayı 1999 və 2012-ci illər üçün verilmişdir, min nəfərlə)

Azərbaycanın mühüm tarixi şəhərləri sırasına daxil olan Ordubadda əhalinin sayının uzun illər ərzində 10 min nəfərdən yuxarı qalxmaması onun inkişafının zəif templə getdiyini, iqtisadi və sosial bazasının zəif olduğunu göstərir. Şəhərdə iri istehsal və xidmət obyektlərinin yaradılmaması, uzun illər mövcud olan ipəkçilik sənayesi müəssisələrinin yarımçıq istehsal mərhələsi və son məhsul buraxılışının təşkil edilməməsi, əmək ehtiyatlarından istifadə edilməsində olan problemlər şəhərin inkişafına imkan verməmişdir (Mehrəliyev və b., 1988).

Ordubad şəhərində əhalinin sayı 1970-ci ildəki 6929 nəfərdən 1999-cu ildə 9763 nəfərə yüksəlmiş və ya 40,9% artmışdır. 1999-cu ildən sonra da şəhərdə əhalinin sayı zəif templə artmışdır. Son iki siyahıyaalma arasındakı dövrdə burada əhali sayının artımı 3,4% təşkil etmişdir.

Culfa 1948-ci ildən şəhər statusu qazansa da, əhalinin sayının az olması onun iqtisadi potensialının artması üçün görülən tədbirlərin kifayət qədər olmadığını göstərir. Şəhərdə 1989-cu ildən sonra artım sürəti əvvəlki dövrlərə nisbətən xeyli az olmuşdur. Şəhərdə əhalinin iş yerləri ilə zəif təmin olunması, sosial xidmətin aşağı səviyyəsi, mənzil probleminin həll edilməməsi onun inkişafını ləngidir. 1989-1999-cu illərdə Culfa şəhərində əhalinin sayı 13,4%, sonrakı 10 ildə 17,8% yüksəlmişdir. Hazırda Culfada 12,5 min nəfər əhali yaşayır. Rayonda qəsəbələrin olmaması da şəhər əhalisinin sayının artımına mənfi təsir göstərən amillərdən biridir.

2009-cu ildə MR-də əhalisi 3-5 min nəfər arasında olan şəhər yaşayış məntəqələrinə Şahbuz şəhəri və Babək qəsəbəsi aid olmuşdur (2-ci və 3-cü şəkillər).

Şahbuz 1965-ci ildə qəsəbələr sırasına daxil edilmiş və yenidən yaradılan Şahbuz rayonunun inzibati mərkəzinə çevrilmişdir. Lakin onun əhalisinin sayı azdır və artım zəif templə gedir. 1970-ci ilin əvvəlində qəsəbədə 1465 nəfər əhali olmuşdur. Bu dövrdən sonra əhalinin artım sürəti yüksək olsa da (1970-79-cu illərdə 19,5%, sonrakı on ildə 30,3%), 1999-cu ilə qədər olan müddətdə – 30 ildə bu artım 2 dəfəyə də çatmamışdır (Azərbaycan Respublikası..., 2010). Şahbuza 2007-ci ildə şəhər statusu verildikdən sonra əvvəlki dövrlərə nisbətən əhalinin sayı daha yüksək templə çoxalmışdır. 1999-2009-cu illərdə Şahbuzda əhali 18,3% artmış və 3024 nəfərə

çatmışdır. Hazırda rayon mərkəzində 3,2 min nəfər əhali yaşayır.

Naxçıvan MR-də qəsəbələr şəbəkəsi zəif inkişaf etmişdir və onlar əhalinin sayının az olması ilə fərqlənir (2-ci şəkil). 2009-cu ildə Kəngərli rayonunun inzibati mərkəzi Qıvraq qəsəbəsində əhalinin sayı 5076 nəfər olmuşdur, Babək qəsəbəsində 3324 nəfər, Naxçıvan şəhər ərazi dairəsinə daxil olan Əliabad qəsəbəsində 2581 nəfər əhali yaşamışdır.

Babək və Şərur rayonları ərazilərinin bir hissəsinin hesabına 2004-cü ildə yeni Kəngərli rayonu yaradılmış və rayonun inzibati mərkəzi kimi seçilən Qıvraq kəndinə qəsəbə statusu verilmişdir. Bu səbəbdən də qəsəbənin sosial-iqtisadi bazası yetərli deyil, əhalinin say artımı zəif templə gedir. Problemin həlli üçün kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin və xidmət obyektlərinin yaradılması istiqamətində tədbirləri genişləndirmək lazımdır. Eyni zamanda, şəhər əhalisinin sayının artırılması üçün əhalisinin sayı çox olan Xok (5234 nəfər) və Qarabağlar (6377 nəfər) kəndlərinə qəsəbə statusunun verilməsi və bu kəndlərdə infrastruktur şəbəkəsinin yaradılmasına ehtiyac vardır.

Babək qəsəbəsi 1930-cu ildə təşkil edilmiş Naxçıvan rayonunun 1978-ci ildə Babək rayonu adlanmasından sonra yaranmışdır. Lakin burada da artım zəif templə gedir və 2012-ci ildə əhalinin sayı 3,6 min nəfər olmuşdur. Əvvəllər Babək qəsəbəsində əhali artımı yüksək olsa da, son iki siyahıyaalma arasındakı dövrdə əhalinin sayı 8,3% çoxalmışdır. Qəsəbədə iqtisadi və sosial bazanın zəif inkişafı, iri təsərrüfat obyektlərinin olmaması səbəbindən əhalinin artımı aşağı templə gedir.



2-ci şəkil. Naxçıvan MR-in qəsəbələrində əhalinin sayının dəyişməsi (Əhalinin sayı 1999 və 2012-ci illər üçün verilmişdir, min nəfərlə)

Əliabad qəsəbəsi 2001-ci ildə Babək rayonundan ayrılmış və Naxçıvan şəhər ərazi dairəsinin tərkibinə qatılmışdır 2002-ci ildə kəndə qəsəbə statusu verilmişdir. Naxçıvan şəhərinə yaxın yerləşməsi onun əhalisinin say artımına, burada təsərrüfat obyektlərinin yaradılmasına imkan verəcəkdir. 2009-cu ildə qəsəbədə 2581 nəfər, 2012-ci ildə 2700 nəfər əhali yaşamışdır. Naxçıvan şəhərinin peyk məntəqəsi kimi mövqedə yerləşməsi qəsəbənin sosial-demoqrafik inkişafının əsas amilidir.

Parağaçay qəsəbəsi Ordubad rayonunda yerləşən mis-molibden yatağının istismar edilməsi əsasında 1952-ci ildə yaradılmışdır. Yatağın istismarının dayandırılması, qəsəbənin 2200 m mütləq hündürlüyə malik əlverişsiz ərazidə yerləşməsi səbəbindən əhalinin yaşaması və əmək fəaliyyəti ilə məşğul olması üçün ciddi problemlər yaranmışdır (Nadirov və b., 2000). Uzun illərdir ki, qəsəbədə əhalinin sayı artmır və 100 nəfərə yaxın olaraq qalır. Hazırda bağçılıq və heyvandarlıq əhalinin əsas məşğulluq sahələridir.

Ağdərə qəsəbəsi də Ordubad rayonunda, 2350 m mütləq yüksəklikdə yerləşir, vaxtilə mövcud olmuş kəndin əsasında yaranmışdır. 1952-ci ildə burada Ağdərə polimetal filiz yatağının istismarı başlanmışdır. Hazırda yataq istismar edilmədiyindən əhali köçüb getmişdir. Sənaye əhəmiyyətli yatağın yenidən istismarı burada infrastruktur şəbəkəsi yaradılmasına, qəsəbənin mənimsənilməsinə və əhalinin sayının artmasına imkan vermiş olar.

Şəhriyar qəsəbəsi 2003-cü ildə Ordubad şəhəri yaxınlığında yerləşən Ordubad kəndinin adının dəyişdirilməsi və ona qəsəbə statusu verilməsi ilə yaradılmışdır. Lakin qəsəbənin əhalisinin sayı azdır (329 nəfər). Məntəqənin inkişaf etməsi üçün ciddi tədbirlərin görülməsinə ehtiyac vardır (2-ci şəkil).

Badamlı qəsəbəsi Şahbuz rayonunda yerləşən Badamlı kəndindən ayrılmış və qəsəbə kimi yaradılmışdır (2003). 2009-cu ildə burada 654 nəfər yaşamışdır. Qəsəbədə mineral suların zəngin mənbəyi yerləşir.

Sədərək təkcə MR-in deyil, bütün ölkənin ən böyük kənd məntəqələrindən biridir. 1990-cı ildə Sədərək rayonu yaradılarkən kəndə qəsəbə statusu verilməklə onun inzibati mərkəzinə çevrilmişdir. Sədərək qəsəbəsində 1999-cu ildə əhalinin sayı 10750 nəfər olmuşdur. 2003-cü ildə rayon mərkəzi olan Sədərək yenidən kənd statusu-

na qaytarılmış, inzibati mərkəz yeni yaradılan və əhalisi bir neçə yüz nəfər təşkil edən məntəqəyə (Heydərabad) keçirilmiş və ona qəsəbə hüququ verilmişdir. Nəticədə Sədərəkdə əhalinin sayı azalaraq 2009-cu ildə 9306 nəfərə enmişdir. Rayonun Kərki kəndi Ermənistanın ərazisində anklav formasında yerləşir və 1990-cı ildə işğal edilmişdir.

Kənd yaşayış məntəqələrinin təsnifatı. 2009-cu ildə Naxçıvan MR-də mövcud olan 207 kənd yaşayış məntəqəsində 282,8 min nəfər əhali yaşamışdır (Azərbaycan Respublikası..., 2010). 2012-ci ilin əvvəllərində isə kənd əhalisinin sayı 296,8 min nəfərə çatmışdır.

Kəndlərin əhalisinin sayına görə qruplaşmasının aparılması sosial, iqtisadi və demoqrafik cəhətdən əhəmiyyətlidir. Kəndlər məhsuldar torpaq sahələrinin cəmləndiyi düzənlik, dağətəyi zonalarda, dağlararası çökəkliklərdə, şirin su mənbələri olan çayların və göllərin sahillərində, bir çox hallarda iri şəhərlərə yaxın, əhalini ərzaq məhsulları ilə təmin edən şəhərətrafı zonalarda yerləşir. Bu kəndlərin əhalisi kənd təsərrüfatı məhsullarının becərildiyi təsərrüfatlarda çalışır. Kəndlərin inkişafı əsasən iqtisadi bazanın inkişafından asılıdır. Ölkədə suvarma əkinçiliyi əsasında əməktutumlu kənd təsərrüfatı sahələri inkişaf edir, onların məhsullarının ilkin emalını həyata keçirən müəssisələr fəaliyyət göstərir, bəzən iri kənd məntəqələri formalaşır.

Məhz göstərilən iqtisadi və demoqrafik amillər Naxçıvan MR-də kəndlərin formalaşmasına ciddi təsir göstərir. MR-də kəndlərin əksəriyyəti Şərur (65 kənd), Ordubad (43 kənd), Babək (34 kənd), Culfa (24 kənd) və Şahbuz (23 kənd) rayonlarında yerləşir. Sədərək rayonunun tərkibinə 3, Naxçıvan şəhər inzibati ərazi dairəsinin tərkibinə 5 kənd daxildir. İnzibati rayonlarda kəndlər əhalisinin sayına və qruplaşmada tutduğu mövqelərinə görə bir-birindən fərqlənir (3-cü şəkil).

MR-də əhalisinin sayı 5 min nəfərdən çox olan kəndlər əsasən Araz çayına yaxın düzənlik və dağətəyi zonalarda yerləşir. 2009-cu ildə MR-də əhalisi 5 min nəfərdən çox olan 7 kənddə 55,7 min nəfər əhali məskunlaşmışdır (4-cü və 5-ci şəkillər). Onlar MR-in kənd əhalisinin 19,7%-ni təşkil edir. Bu kəndlərə Babək rayonunda Nehrəm (13752 nəfər) və Cəhri (9115 nəfər) kəndləri, Sədərək kəndi (9306 nəfər), Kəngərli rayonunda Qarabağlar (6377 nəfər) və Xok (5234 nəfər) kəndləri, Culfa rayonunda Yaycı kəndi (6343 nəfər) və Şərur rayonunda Dəmirçi kəndi (5573 nəfər) daxildir. Sədərək və Nehrəm bütün ölkədə əhalisinin sayı ən çox olan kənd yaşayış məntəqələri sırasına daxildir.

1999-cu ildə əhalisinin sayı 5 min nəfərdən çox olmuş 5 kənddə 41,7 min nəfər əhali yaşamış və kənd əhalisinin 16,1%-ni təşkil etmişdir. Sonrakı 10 il ərzində Xok və Dəmirçi kəndləri də bu qrupa daxil olmuşdur.

Növbəti qruplaşmaya daxil olan kəndlərdə 3 min nəfərdən 5 min nəfərə qədər əhali yaşayır. Bu qrupda yaşayan 51,7 min nəfər əhali MR-in kənd əhalisinin 18,3%-ni təşkil edir. Qrupa daxil olan kəndlərin yarısı Şərur rayonunda yerləşir. Rayonun bu kəndlərində 27 min nəfər əhali yaşayır ki, onlar da kənd əhalisinin 28,2%-ni təşkil edir. Babək rayonunda Qahab, Şıxmahmud, Sirab kəndləri, Culfada Bənənyar kəndi, Ordubadda Dəstə kəndi, Kəngərlidə Şaxtaxtı kəndi və Sədərək rayonunda Qaraağac kəndi bu qrupa daxildir.

1999-cu ildə MR-də əhalisi 3-5 min nəfər olan 12 kənddə 46,8 min nəfər əhali yaşamışdır. 1999-2009-cu illərdə qrupda əhalinin sayı 4,9 min nəfər və ya 10,5% artsa da, onların kənd əhalisi arasında payı (18,1%) dəyişməmişdir.

Naxçıvan MR-də əhalisi 2-3 min nəfər olan kəndlərin sayı (14 kənd) əvvəlki qrupla eyni olsa da, əhalinin sayı (33,8 min nəfər) xeyli azdır. Bu qrupda MR-in kənd əhalisinin 12%-i yaşayır. Onların əsas hissəsi Şərur rayonunun payına düşür. Rayonda bu qrupa daxil olan 6 kənddə 14,6 min nəfər yaşayır ki, onlar da kənd əhalisinin 15,3%-i deməkdir. Şərur-Ordubad düzənliyinin Arpa və Araz çaylarının hövzələrinə aid olan hissəsində mövqe tutan Şərur rayonu ölkənin ən sıx məskunlaşan ərazilərindən biridir. Digər rayonlarda əhalisi 2 min nəfərdən 3 min nəfərə qədər olan cəmisi bir neçə kənd vardır.

1999-cu ildə bu qrupa daxil olan 15 kənddə 37,2 min nəfər (kənd əhalisinin 14,4%-i) əhali olmuşdur. Həmin ildə Babək rayonunda 2,0-3,0 min nəfər əhalisi olan 7 kənddə 17,1 min nəfər əhali toplanmışdır. Keçən on ildə bu qrupda yalnız Zeynəddin kəndi (2874 nəfər) qalmışdır. Belə ki, rayondan kəndlərin bir neçəsi Naxçıvan şəhər ərazi dairəsinə verilmiş, bir qismi yeni yaradılan Kəngərli rayonuna keçirilmişdir (Çalxanqala kəndi), bəziləri də inkişaf edərək daha yuxarı qruplarda yer almışdır. Bu qrupda Şərur rayonunda da xeyli sayda (7 kənddə 17,9 min nəfər) əhali toplanmışdır.



3-cü şəkil. Naxçıvan MR-də kənd məskunlaşması, 2009



4-cü şəkil. Naxçıvan MR-də kəndlərin böyüklüyünə görə qruplaşdırılması



5-cü şəkil. Naxçıvan MR-də kəndlərin qrupları üzrə əhalinin paylanması

Ümumilikdə, əhalisinin sayı 2 min nəfərdən çox olan kəndlərin sayı 35-ə çatır. Bu kəndlərdə 141165 nəfər və ya kənd əhalisinin yarısı (49,9%) cəmlənir. Qruplara daxil olan kəndlər məskunlaşmada mühüm yer tutur.

Kəndlərin əksəriyyəti dağətəyi və alçaq dağlıq ərazilərdə yerləşir, əlverişli İCM-ə malikdir və davamlı olaraq iqtisadi və demoqrafik inkişaf perspektivi olması ilə fərqlənir. Yaxın gələcəkdə onların bir neçəsi şəhər və qəsəbəyə çevrilə bilər.

Əhalisinin sayı 200 nəfərdən 2 min nəfərə qədər olan kəndlərin sayı və onlarda toplanan əhali böyük üstünlük təşkil edir. Bu qruplarda ümumilikdə 153 kənd vardır, o cümlədən əhalisinin sayı 1000-2000 nəfər arasında olan qrup kəndlərin (61kənd) və onlarda yaşayan əhalinin sayına görə (85349 nəfər) birinci yeri tutur. Bu qrupda Naxçıvan MR-in kənd əhalisinin 30,2%-i yaşayır.

Ərazi üzrə paylanmasına görə kəndlərin çoxu Şərur (22 kənd), Babək (11 kənd) və Ordubad rayonlarında (10 kənd) yerləşir. Kənd əhalisinin sayı da, müvafiq olaraq, Şərur (31548 nəfər və ya rayonun kənd əhalisinin 33,0%-i), Babək (15357 nəfər və ya 25,8%) və Ordubad rayonlarında (13373 nəfər və ya 38,7%) daha çoxdur. Son vaxtlarda yaradılmış Kəngərli rayonunda bu qrup daxilində 3 kənd (Böyükdüz, Qabıllı və Yurdçu kəndləri), Naxçıvan şəhər ərazi dairəsində 2 kənd (Tumbul və Bulqan kəndləri) vardır.

Qruplaşmada kəndlərin sayına (59 kənd) və bu kəndlərdə yaşayan əhalinin sayına görə (41474 nəfər) ikinci yeri 500-1000 nəfər əhaliyə malik olan yaşayış məntəqələri tutur. Bura kənd əhalisinin 14,5%-i daxildir. Qrup daxilində kəndlərin əsas hissəsi Şərur (19 kənddə 14374 nəfər), Babək, Ordubad və Şahbuz rayonlarında yerləşir. Qruplaşmada aralıq mövqe tutduğuna görə gələcəkdə burada da kəndlərin və əhalinin sayının artacağını söyləmək olar.

Əhalisinin sayı 200 nəfərdən 500 nəfərə qədər olan kəndlər MR-in alçaq dağlıq və dağlıq zonalarında, yollar və kommunikasiya xətlərindən kənar ərazilərdə yerləşir. Bu qrupda yer almış 33 kənddə MR-in kənd əhalisinin 12426 nəfəri və ya 4,4%-i yaşayır. Onların əsas hissəsi Ordubad, Culfa və Şərur rayonlarının payına düşür. Ordubad rayonunda bu qrupa kənd əhalisinin 13,3%-i, Culfa rayonunda 7,7%-i, Şərurda isə 2,3%-i düşür.

MR-də əhalisinin sayı 200 nəfərə qədər olan kəndlərin sayı azdır və bu kəndlərdə yaşayan əhalinin sayı da azlıq təşkil edir. Əhalisi 100-200 nəfər arasında olan 15 kənd mövcuddur və bu məntəqələrdə 2421 nəfər yaşayır. Onların əsas hissəsi (7 kənd) Ordubad rayonunun payına düşür. Əhalinin köçüb getməsi ilə əlaqədar 2009-cu ildə Naxçıvan MR-də 4 kəndin əhalisi olmamışdır. Onlara Ordubad rayonunda Kilit kəndi, Şərur rayonunda Günnüt və Bəhruz Kəngərli kəndləri, Şədərək rayonunda Kərki kəndi aiddir. Kərki kəndi işğal altındadır.

Nəticə. Aparılan təhlillərə əsasən aşağıdakı nəticələri qeyd etmək olar:

1) Naxçıvan MR-də əksər şəhər və qəsəbələrdə əhalinin sayı 5 min nəfərdən azdır. Bu qruplara daxil olan məntəqələrdə əhalinin məhdud sayı iri istehsal obyektləri şəbəkəsinin yaradılmasına imkan vermir, əhaliyə göstərilən xidmətlərin səviyyəsi aşağıdır. Ona görə əhalinin sayının artması üçün, ilk növbədə, xidmət obyektlərinin yaradılması, yerli təbii ehtiyatlardan isti-

fadə edilməsi, kənd təsərrüfatı məhsullarının emalı əsasında istehsal sahələrinin yaradılması, bu sahələrə xidmət edən maddi-texniki obyektlərin təşkili, şəhər əhalisinin iş yerləri ilə təminatında onların rolunun yüksəldilməsi istiqamətində tədbirlərin genişləndirilməsinə ehtiyac vardır.

2) Naxçıvan MR-də şəhər və kənd yaşayış məntəqələrinin, onlarda toplanan əhalinin sayının dinamikasında olan meyillərin öyrənilməsi göstərir ki, iqtisadi və sosial baza zəif olduğundan məntəqələrin inkişafı zəif templə gedir. Buna baxmayaraq, zaman keçdikcə kəndlərdə əhalinin sayı artır, onlar daha yuxarı qruplara keçir. Əhalisinin sayı çox olan bəzi kəndlər şəhər məntəqələrinə çevrilə bilər. Bu isə onların inkişafına kömək etmiş olar.

3) Təsərrüfat sahələrinin ixtisaslaşması, məntəqələrin yerləşdiyi ərazilərin relyef şəraiti və mütləq hündürlüyü də əhalinin sayını müəyyən edən amillər sırasına daxildir. Əhalisinin sayı kifayət qədər olan bir sıra kəndlərdə sosial obyektlər şəbəkəsi qurulur, əhaliyə yerlərdə göstərilən sosial-mədəni xidmətlərin səviyyəsi yüksəlir. Uzun illər üzümçülük, tütünçülük və meyvəçilik sahələrinin inkişafı MR-də Araz çayı boyu kəndlərdə əhalinin cəmlənməsinə imkan vermişdir. Kəndlərin əhalisinin çoxalması, yerləşdikləri ərazinin İCM-i onların həmçinin qeyri-kənd təsərrüfatı funksiyasını yerinə yetirməsinə şərait yaradır.

ƏDƏBIYYAT

AZƏRBAYCANIN DEMOQRAFİK GÖSTƏRİCİLƏRİ – 2011. 2012. DSK. Bakı

AZƏRBAYCANIN ƏHALİSİ – 2011. 2012. DSK. Bakı.

AZƏRBAYCANIN STATİSTİK GÖSTƏRİCİLƏRİ – 2011. 2012. DSK. Bakı.

AZƏRBAYCAN RESPUBLİKASI ƏHALİSİNİN 1999-CU İL SİYAHIYAALMASININ YEKUNLARI. 2000. I hissə. Əhalinin sayı, cins-yaş tərkibi. DSK. Bakı.

AZƏRBAYCAN RESPUBLİKASI ƏHALİSİNİN 2009-CU İL SİYAHIYAALMASININ YEKUNLARI. 2010. I hissə. Əhalinin sayı, yerləşməsi, cins, yaş tərkibi və nikah vəziyyəti. DSK. Bakı.

EMİNOV, Z.N. 2005. Azərbaycanın əhalisi. Çıraq, Bakı.

MEHRƏLİYEV, E.Q., ƏYYUBOV, N.H., SADIQOV, M.O. 1988. Azərbaycan SSR-də əhalinin məskunlaşması məsələləri. Elm. Bakı. 196s.

MEHRƏLİYEV, E.Q. 2003. Azərbaycan Respublikasında demoqrafik proseslərin regional təhlili. Elm. Bakı. 236s.

NADİROV, A.A., NURİYEV, Ə.X., MURADOV, Ş.M. 2000. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Elm. Bakı. 104s.

Məqaləyə c.e.n. Z.N.Eminov rəy vermişdir.

© H.A.Xəlilov, S.N.Abuşova, 2013

KİÇİK QAFQAZIN ŞİMAL-ŞƏRQ YAMACI MORFOSTRUKTURLARININ MÜHİTƏMƏLƏGƏTİRMƏDƏ ROLUNUN EKOGEOMORFOLOJİ TƏDQİQİ (Xram və Zəyəm çayları arası)

H.A.Xəlilov, S.N.Abuşova

Azərbaycan MEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu
AZ1143, Bakı, H.Cavid prosp., 115

Ekoloji geomorfologiyanın (ekogeomorfologiyanın), bütövlükdə relyeflə ekosistemlərin qarşılıqlı əlaqəsi və təsirini öyrənən elmi istiqamət səciyyəsi daşıması geomorfologiyanın obyektinin – relyef və onun əsasını təşkil edən morfostrukturların coğrafi təbəqə sistemində xüsusi mövqeyə malik olmasına, onların ekoloji şəraitin və deməli, ətraf mühitin formalaşmasına təsir edən əsas amil rolu oynamasına dəlalət edir. Bu baxımdan morfostrukturların mühitəmələgətirmədə rolunun ekogeomorfoloji tədqiqi mühüm elmi və əməli əhəmiyyət kəsb edir.

Tədqiqatın aktuallığı

XX əsrin sonlarından etibarən dünyada ekoloji təfəkkürün geniş vüsət alması, elmlərin sürətlə "ekologiyalaşdırılması", elmi ictimaiyyətin qaldırdığı ekoloji problemlərin bəşəriyyətin çox vacib probleminə çevrilməsi, başqa elm sahələrində olduğu kimi, Yer elmləri sistemində, o cümlədən geomorfologiyada da yeni tədqiqat istiqamətinin – ekoloji geomorfologiyanın inkişafına böyük zərurət yaratmışdır. Bu baxımdan relyefin, insanların məskunlaşdığı mühitin və ya ekogeomorfologiyanın tədqiqat obyekti kimi baxılan, ekosistemin özül ünsürünü təşkil etməsi və ümumiyyətlə, onun ekosistemlərin formalaşmasına, inkişafına və dayanıqlığına təsir göstərən geomorfoloji şərait haqqında elmi istiqamət mahiyyəti daşıması və eləcə də relyefin mühəndisi və ekoloji xassələrini (dayanıqlığı, cazibədarlığı, təbii ehtiyat funksiyası, biosferin, hidrosferin, litosferin və nəhayət, noosferin bazisi olması və s.) öyrənməsi, relyefinin xeyli mürəkkəbliyi və morfogenetik müxtəlifliyi ilə səciyyələnən respublikamızda bu istiqamətdə tədqiqatların aparılması mühüm aktuallıq kəsb edir. Kiçik Qafqazın şimal-şərq yamacının özünəməxsus geomorfoloji quruluşa malik olması, təbii sərvətlərlə zənginliyi, geoloji-geomorfoloji baxımdan ətraflı öyrənilməsi ilə yanaşı, ölkəmizin ən intensiv məskunlaşan ərazisini təmsil etməsi və ekoloji çox gərgin (Göygöl) və ekoloji gərgin (Gədəbəy, Kəlbəcər) ekoloji-coğrafi rayonlara aid edilməsi bu ərazidə ekogeomorfoloji tədqiqatların aktuallığını daha da artırır.

Tədqiqat obyekti

Tədqiq olunan ərazi orotektonik cəhətdən, litosfer plitələrinin tektonikası konsepsiyasına görə, Elburs-Kiçik Qafqaz okean-qırışıqlıq geosinklinal sistemi daxilində qövsarxası riftogen və vulkanik qurşaqların müxtəlif strukturlarından təşkil olunmuş qırışıqlı-qaymalı dağlıq sisteminə daxildir (Рустамов, 2005). O, Azərbaycan Respublikasının geomorfoloji rayonlaşdırılması sxeminə (Budaqov, 2007) əsasən, Kiçik Qafqaz geomorfoloji əyalətinin kənar Kiçik Qafqaz bölgəsinin şimal-şərq yamac yarımbölgəsi daxilində Ağstafa və qismən də Şahdağ geomorfoloji, təbii proses və hadisələrin (seysmiklik, sürüşmə, uçqun, eroziya, abraziya, sel, subasma, dolu, leysan yağışların miqdarı, minimal axım və s.) intensivliyi və ya gərginliyi dərəcəsinə görə ekoloji çox gərgin Göygöl, ekoloji gərgin Gədəbəy və Kəlbəcər ekoloji-coğrafi rayonlarını əhatə edir (Будагов, 1999). Tədqiq olunan ərazi Kiçik Qafqazın və eləcə də Azərbaycanın fiziki-coğrafi cəhətdən ən ətraflı öyrənilmiş sahələrindədir. Bu baxımdan ərazi geomorfoloji məsələlərin müxtəlif vaxtlarda və ayrı-ayrı tədqiqatçılar tərəfindən daha geniş öyrənilməsi və tədqiqatların nəticələrinin monoqrafik əsərlər şəklində (Ализаде, 1998; Антонов, 1971; Халилов, 1999) ətraflı ümumiləşdirilməsi ilə səciyyələnir. Bu və eləcə də ərazinin əlverişli coğrafi mövqeyə, zəngin təbii ehtiyatlara və mürəkkəb təbii şəraitə malik olması relyefin mühitəmələgətirici funksiyasının onun timsalında tədqiq olunmasına geniş imkan yaradır. Buradan da ərazidə ekoloji şəraitin for-

malaşmasında, başqa təbii və antropogen amillərlə yanaşı, ekosistemin abiotik (kostik) və ya ekotop (Arecc, 1982) ünsürlərinin özülü funksiyasını daşıyan morfostrukturların rolunun tədqiqinin mühüm əhəmiyyət kəsb etməsi aydın olur. Eyni zamanda, ekoloji geomorfologiyanın, əsasən, relyeflə ekosistemin başqa ünsürlərinin əlaqəsi və münasibətinin vəziyyəti və təkamülü qanunauyğunluqlarını öyrənən geomorfoloji istiqamət səciyyəsi relyefin mühitəmələgətirici funksiyasının tədqiqinin həmin istiqamətə aid olmasını göstərir.

Qeyd etmək lazımdır ki, yuxarıda deyilənlərlə yanaşı, morfostrukturların, ümumiyyətlə, ekosistemin təməl ünsürünü təşkil etməsi (Поздеев, 2000), mühüm rekreasiya ehtiyatlarına və estetik potensiala malik olması (Тимофеев, 2002), biosferin əsas sərvətlərindən biri kimi vurğulanması (Бердышев, 2002), eləcə də onun özünəməxsus təbii ehtiyat hesab olunması (Tanrıverdiyev, 2002; Xəlilov, 2010; Халилов, 1999) və geomorfoloji təbiət abidələrinin ekoturizmin (geoturizmin) inkişafında mühüm əhəmiyyət kəsb etməsi (Халилов, 2006) haqqındakı fikirlər də nəzərə alınaraq, relyefin mühitəmələgətirici funksiyaya malik olması konsepsiyası irəli sürülmüşdür (Халилов, 2002). Bu konsepsiyanın nəzəri əsasını relyefin ekosistemi əmələ gətirən başqa ünsürlərlə qarşılıqlı əlaqəsi və onlara təsiri qanunauyğunluğu təşkil edir. Bu baxımdan relyefin mühitəmələgətirici funksiyası landşaftın və ya ekosistemin diferensiyasında, yer qabığında və onun səthində hərarətin, rütubətin, üzvi və qeyri-üzvi (mineral) maddələrin hərəkətində, paylanmasında, maddələr mübadiləsində və eləcə də iqlim, torpaq, bitki, heyvanlar aləmi və başqa təbii ünsürlərin səciyyəvi xüsusiyyətlərinin formalaşmasında mühüm amil olması ilə müəyyən edilir. Burada relyefin və onu mürəkkəbləşdirən morfoskulptur və morfostrukturların morfogenetik-morfometrik-morfoqrafik xüsusiyyətləri, morfogenez proseslərlə əlaqəsi, tektonik və maqmatik strukturlarla qarşılıqlı münasibəti, hipsometrik vəziyyəti, endo- və ekzodinamiki gərginliyi, dayanıqlığı, enerjisi, inkişafının geotektonik şəraiti, təşkil olunduğu əmələqəlmələrin petroloji, litoloji, struktur və geokimyəvi xüsusiyyətləri, antropogen deformasiyası və s. amillər mühüm rol oynayır.

Tədqiq olunan ərazinin Kiçik Qafqaz daxilində litosfer plitələrinin kolliziya zonasında mürəkkəb geoloji inkişaf yolu keçməsi morfostrukturların geniş morfogenetik müxtəlifliyinin yaranmasına səbəb olmuşdur (şəkil). Morfostrukturların struktur-litoloji-petroloji təhlili onları tektonik (morfotektur) və maqmatik (morfomaqmatur) kimi iki əsas genetik tipə ayırmağa imkan yaratmışdır. Birinci tipə Babəkyar antiklinal tirəsi, Aydağ sinklinal çökəkliyi, Malaçal horst-antiklinal yüksəkliyi, Uçux və Buğaboynu horst-antiklinal tirələri, İncəsu, Fərəhli, Ağstafaçay, Əsrikçay və s. qraben-sinklinal dərə və çökəklikləri, Kəkil, Göyrüşlü, Ağdağ, Taydaş və s. horst-sinklinal platoları, Şahdağ horst-sinklinori silsiləsi, Qazançı, Qarayal, Üçgül, Muncuqlu və s. günbəzvari yüksəklikləri, Göyərçin, Qızdağ həlqəvi tirələri, Keçəldağ qövsvari silsiləsi, Qaymaxlı, Aydağ, Darvadağ və s. monoklinal tirələri, ikinci tipə isə Dağkəsəmən, Lazlar, Keçəldağ, Dörtlər və s. intruziv massiv və yüksəklikləri, Göyəzən, Dəmirçilər, Musaköy, Köçəskər və s. ekstruziv günbəzləri, Şamlıq ekstruziv tirəsi, Daşsalahlı, Ağdərə kalder çökəklikləri və s. morfostrukturlar aid edilir. Beləliklə, tədqiq olunan ərazinin relyefi və oroqrafiyasının əsas cəhətləri, onun coğrafi mövqeyi, iqlim şəraiti, geoloji quruluşunda iştirak edən əmələqəlmələrin strukturu, litoloji-fasial, petroloji və geokimyəvi xüsusiyyətləri, diqər endogen və ekzogen amillər tədqiq olunan ərazidə ətraf mühitin vəziyyətinin və deməli, ekoloji şəraitin kifayət qədər müxtəlifliyinə səbəb olmuşdur.

Ərazidə silsilələr, massivlər, dağarası çökəkliklər, çay dərələri və başqa yüksək dərəcəli morfostrukturların tektonik çata uyğun gələn və bununla əlaqədar dinamiki gərginliyinin yüksəkliyi ilə fərqlənən yamacları istisna olunmaqla, relyefin dayanıqlığı nisbətən stabil səciyyə daşıyır. Burada həmçinin morfostrukturların geodinamik cəhətdən nisbi tarazlıq vəziyyətinə yaxın şəraitdə inkişafı, onları təşkil edən qırışıqların nisbətən mülayim quruluşu və süxurların, əsasən, aşınmaya davamlığı mühüm rol oynayır. Lakin bəzən seysmoloji amillərin gücləndirdiyi qravitasiya, flüvial və başqa ekzodinamiki destruktiv morfogenez proseslərin daha intensiv inkişaf etdiyi çay dərələrinin, çökəkliklərin, silsilə, tirə və massivlərin dik yamacları dinamiki gərginliklərinin xeyli yüksək olması ilə səciyyələnir. Bununla yanaşı, ərazinin geoloji quruluşunda iştirak edən çöküntü və süxurların tərkibində ağırtoksik və radioaktiv elementlərin az yayılması ilə əlaqədar olaraq ətraf mühitin nukleidlərlə təbii çirklənməsi aşağı səviyyədədir. Deyilənlər tədqiq

olunan ərazidə fərqli xüsusiyyətlərə malik ekoloji şəraitin formalaşmasında relyefin mühitəməələgətirici funksiyasının mürəkkəb səciyyə daşımasına dəlalət edir ki, burada həmin qanunauyğunluğun təzahür etməsində dağlıq sistemin şaquli diferensiyasiyası (hündürlük zonallığı) və ya hipsometriyası amili xüsusi əhəmiyyət daşıyır. Belə ki, dağətəyi düzənliklərlə yanaşı, alçaq dağlıq qurşaqda əksər morfostrukturlar daha mülayim plastikaya malik olduğundan onlarda, çay dərələrinin sıldırım yamacları istisna olunmaqla, qravitasiya və flüvial destruktiv proseslər (sürüşmə, uçqun, eroziya və s.) zəif inkişaf etmişdir. Qurşaqda endodinamik proseslərin fasilələrlə canlanması ilə əlaqədar olaraq ərazidə ekzodinamik proseslərin güclənməsi də fasilələrlə baş verir. Bununla yanaşı, qurşaq daxilində geodinamiki gərginliyin nisbətən zəif səciyyə daşıması relyefin dayanıqlığının kifayət qədər yüksək olmasına gətirib çıxarır ki, bunlar da birlikdə geomorfoloji amilin əlverişli ekoloji mühitin formalaşdırmasına geniş imkan yaratdığına dəlalət edir.



Kiçik Qafqazın şimal-şərq yamacının morfostruktur xəritə-sxemi (fraqment).
1 – antiklinal silsilə və tirələr; 2 – günbəzvari yüksəkliklər; 3 – qövsvari silsilə və tirələr; 4 – sinklinal, qraben-sinklinal dərə və çökəkliklər; 5 – horst-sinklinal plato, tirə və silsilələr; 6 – monoklinal tirələr; 7 – monoklinal düzənlik; 8 – intruziv massiv və yüksəkliklər; 9 – ekstruziv tirələr; 10 – kalder çökəkliklər.

Alçaq dağlıq qurşaqda relyefin mühitəmələgətirici funksiyası onu mürəkkəbləşdirən morfostrukturların morfogenetik, plan quruluşları, məkanda yerləşməsi xüsusiyyətləri və eləcə də morfometrik və morfoqrafik göstəriciləri, hipsometrik vəziyyəti, onların təşkil olunduqları çöküntü və süxurların litofasial, petroloji-geokimyəvi və başqa xüsusiyyətləri ilə əlaqədə özünü göstərir. Silsilələrin bəzən sədd amili rolu oynaması burada əlverişli iqlim şəraitinin yaranmasına, morfostrukturları təşkil edən maqmatik süxurlar əsasında torpaq qatının formalaşması isə onun minerallarla zənginliyinə və yüksək məhsuldarlığına səbəb olmuşdur. Ümumiyyətlə, əlverişli relyef şəraitinin mövcudluğu qurşaqda insanların həyat və təsərrüfat fəaliyyəti üçün münasib mühitin əmələ gəlməsinə geniş imkan yaratdığından tədqiq olunan ərazi Kiçik Qafqazın ən çox mənimsənilmiş və sıx məskunlaşmış bölgələrindəndir. O həm də antropogen təsirə məruz qalması, ekosistemlərin antropogen deformasiyası və antropogen landşaftların, xüsusilə də aqrolandşaftların geniş inkişaf etməsilə səciyyələnir. Bununla yanaşı, relyefin yaratdığı əlverişli ekoloji mühit təbii fitosenozun geniş yayılmasına, xüsusilə də meşə örtüyünün formalaşmasına səbəb olmuşdur. Bu, bitki örtüyünün növ tərkibinin zənginliyində də özünü göstərir. Qurşağı təşkil edən əsas morfostrukturların tektonik çatlarla mürəkkəbləşmiş yamaclarında və çay dərələrinin antesedent hissələrində qravitasiya və flüvial destruktiv proseslərin intensiv inkişafı ilə əlaqədar həmin sahələrdə ekoloji tarazlıq pozulur və mühitdə əlverişsiz şərait müşahidə olunur.

Tədqiq olunan ərazinin xeyli sahəsi orta, az hissəsi isə yüksək dağlıq qurşaqların payına düşür. Burada hipsometriyanın yüksəlməsilə əlaqədar relyefin enerjisi, dinamikliyi, morfogenez proseslərin destruktiv fəaliyyəti və intensivliyi də yüksəlir. Odur ki, ərazidə alçaq dağlıq qurşağa nisbətən ekoloji şərait kifayət qədər gərgin səciyyə daşıyır. Bununla yanaşı, həmin qurşaqda düzəlmə səthlərinin, akkumulyativ və erozion-akkumulyativ çay terraslarının, geniş və maili dibli dağdaxili çökəkliklərin yayılması, torpaqəmələgəlmədə müxtəlif maqmatik süxurların iştirakı, relyefin hipsometriyasının şərtləndirdiyi dağ iqlim şəraiti və başqa təbii amillər burada da əlverişli ekoloji mühitəmələgətirici xassəyə malikdir. Bu baxımdan qurşağı təşkil edən morfostrukturların morfogenetik-morfometrik xüsusiyyətləri mühüm rol oynayır. Ərazinin hipsometrik cəhətdən ən yüksək və iri kənar sərhəd morfostrukturu olan Şahdağ silsiləsinin sədd effekti əlverişli ekoloji mühitin formalaşmasında mühüm əhəmiyyət kəsb edir (cənub – cənub-qərbdən gələn quru-isti və soyuq atmosfer axınlarının təsirini xeyli yumşaldır).

Şahdağ silsiləsinin yüksək sahələrində dinamiki morfogenez proseslərin güclənməsi, morfometrik göstəricilərin (şaquli və üfüqi parçalanma, səthin meyilliyi və s.) kəmiyyətlərinin artması, morfoloji xüsusiyyətlərinin dəyişilməsi, hipsometriya ilə əlaqədar relyefin enerjisinin yüksəlməsi və s. amillərin təsiri altında formalaşan mühit insanların daimi məskunlaşmasını xeyli çətinləşdirir. Əlbəttə, relyefin hipsometriyasının insanların həyatı üçün yaratdığı qeyri-normal termobarik və iqlim şəraiti bəzi bitki və heyvan növlərinin məskunlaşması üçün münasib mühitin yaranmasını istisna etmir.

Beləliklə, relyef ekosistemdə temperaturun, rütubətin, atmosfer təzyiqinin, səth və yeraltı suların, üzvi və qeyri-üzvi mineral maddələrin, enerjinin və s. paylanmasında, onların kəmiyyət və keyfiyyət göstəricilərinin diferensiyasında və ümumiyyətlə, atmosfer-hidrosfer-litosfer təbəqələrinin qarşılıqlı əlaqəsində mühüm rol oynayaraq məkanda bu və ya digər xassəli ekoloji mühitin formalaşmasına səbəb olur. Odur ki, ekoloji geomorfologiya sahəsində aparılan tədqiqatlarda ekosistemin əsas ünsürü olan morfostrukturların mühitəmələgətirici funksiyasına xüsusi diqqət verilməsi mühüm elmi və əməli əhəmiyyət kəsb edir.

Nəticə

1. Kiçik Qafqazın şimal-şərq yamacında morfostrukturların şaquli və üfüqi parçalanma dərəcəsi və ekzodinamiki fəal yamacları ekogeomorfoloji gərginliyinin yüksək olması ilə səciyyələnir.

2. Dağdaxili çökəkliklərdə relyefin nisbətən yüksək dayanıqlığı ilə əlaqədar olaraq onların daxilində ekogeomorfoloji şərait əlverişli hesab edilir.

3. Morfostrukturların mühitəmələgətirmə funksiyasının morfogenetik xüsusiyyət, hipsometrik səviyyə, litoloji-petroqrafik tərkib, tektonik quruluş, geokimyəvi və s. amillərlə sıx əlaqəsi müşahidə edilir.

4. Ərazinin sıx məskunlaşdığı sahələrdə

ekogeomorfoloji gərginliyin artmasında antropogen təsir mühüm rol oynayır.

5. Ekoloji-geomorfoloji tədqiqatların elmi və əməli əhəmiyyətini nəzərə alaraq, bu sahədə aparılan işlərin şəbəkəsinin daha da genişləndirilməsi zəruri hesab olunur.

ƏDƏBİYYAT

BUDAQOV, B.Ə. 2007. Relyef. Geomorfoloji bölgü. *Azərbaycan Milli Ensklopediyası*nda. Azərbaycan cildi. AMEA Elmi mərkəzi. Bakı. 14-25.

TANRIVERDIYEV, X.K. 2002. Relyef təbii sərvətdir. *H.Əliyevin 95 illiyinə həsr edilmiş konfransın materiallarında*. Bakı, 188-189.

XƏLILOV, H.A. 2010. Talış dağlıq sistemində relyefin mühitəmələgətirici funksiyası haqqında (tədqiqatın ekogeomorfoloji aspekti) *AMEA xəbərləri. Yer elmləri,* 2, 24-27.

АГЕСС, П. 1982. Ключи к экологии. Гидрометеоиздат. Ленинград. 96с.

АЛИЗАДЕ, А.К. 1998. Морфоструктурное строение горных сооружений Азербайджана и сопредельных территорий. Элм. Баку. 248с.

АНТОНОВ, Б.А. 1971. Геоморфология и вопросы новейшей тектоники юго-восточной части Малого Кавказа. Элм. Баку. 162с.

БЕРДЫШЕВ, С.Н. 2002. Популярный географический энциклопедический словарь. Москва. 768с.

БУДАГОВ, Б.А. 1999. Основные географические проблемы экологически сбалансированного развития Азербайджанской Республики. *Вестник БГУ, Сер. естеств. наук,* 1, 164-188.

ПОЗДЕЕВ, В.Б. 2000. Функции рельефа как элемента геоэкосистемы. В трудах: *Геоморфология на рубеже 21 века. 4 Щукинские чтения.* Москва. 197-199.

РУСТАМОВ, М.И. 2005. Южнокаспийский бассейн – геодинамические события и процессы. Нафта-Пресс. Баку. 345с.

ТИМОФЕЕВ, Д.А., Лихачева, Э.А. 2002. Эстетическая и рекреационная геоморфология. В кн: *Рельеф среды жизни человека (экологическая геоморфология.* Медиа- ПРЕСС. Москва.

ХАЛИЛОВ, Г.А. 1999. Морфоструктуры восточной части Малого Кавказа (Анализ рельефа: вопросы теории и практики). Баку. 277с.

ХАЛИЛОВ, Г.А. 2002. Экологическая геоморфология и интеграция наук. *Вестник БГУ. Сер. естеств. наук,* 1, 210-215.

ХАЛИЛОВ, Г.А. 2006. Природные памятники Азербайджана и экотуризм. *Панорама Азербайджана,* 4 (21), 32-33.

Məqaləyə c.e.d. E.K.Əlizadə rəy vermişdir.